Günəş Şərqdən doğur!

❒ № 112 (5393), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 26 iyun 2021-ci il (şənbə)



## Azərbaycan tarixinin ən güclü ordusunu qurub

Silahlı Qüvvələr gününü bu dəfə Zəfərimizlə qeyd edirik

(Səh.3)



## “Bizə sıfır müharibə riski lazımdır"

Prezident İlham Əliyev: “Əgər Ermənistanla sülh sazişimiz olmasa, bu o deməkdir ki, sülh də yoxdur”

**“Dağlıq Qarabağ münaqişəsi həll olunub, bununla bağlı danışıqlar arası heç nə yoxdur”.**

Bunu Prezident İlham Əliyev iyunun 25-də Rumıniya, Avstriya və Litvanın xarici işlər nazirlərini qəbul edərkən deyib. Dövlət başçısı bildirib ki, Azərbaycan hazırda münaqişədən sonrakı inkişaf vəziyyətindədir.

(səh.2)

## Türkiyə XİN Ermənistandakı seçkiləri dəyərləndirib



“Nəticələrin Cənubi Qafqazda sülh və sabitliyə səbəb olmasını istəyirik”

(səh.2)

# Türkiyəyə biletlər çox bahadır



## Qiymətləri tənzimləmək üçün Qənirə Paşayeva AZAL-a çağırış edib

(səh.8)

# Toylarla bağlı icazə portalı aktivləşdirildi



Bu gündən toy adətlərimizə biri də əlavə olunur

(səh.7)

## ✓ Deputatlar kəskin etiraz etdilər

Vəkillərin 500 manata qədər cərimələnməsi məsələsinə yenidən baxılmalıdır

(səh.5)

## ✓ “YAŞAT" Fonduna hər kəs 10 manat ianə etsin!

“Adil müəllimin səsinə 1 milyon adam səs versə, bu, 10 milyon manatın toplanması deməkdir”

(səh.8)

## ✓ Günvurma ölümə gətirib çıxarır

Gündüz saat 12:00 və 17:00 arası günəş şüalarının altında dayanmaq olmaz

(səh.13)

## ✓ Daha 65 nəfər koronavirusa yoluxub

2 nəfər ölüb, 89 nəfər müalicə olunaraq sağalıb

(səh.8)



# "Bizə sıfır müharibə riski lazımdır"

## Prezident İlham Əliyev: "Əgər Ermənistanla sülh sazişimiz olmasa, bu o deməkdir ki, sülh də yoxdur"

"Dağlıq Qarabağ münaqişəsi həll olunub, bununla bağlı danışıqlar aparası heç nə yoxdur". Bunu Prezident İlham Əliyev iyunun 25-də Rumıniya, Avstriya və Litvanın xarici işlər nazirlərini qəbul edərkən deyib. Dövlət başçısı bildirib ki, Azərbaycan hazırda münaqişədən sonrakı inkişaf vəziyyətindədir:

"Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat bəzi beynəlxalq siyasətçilərin təqdim etməyə çalışdığı kimi, təkcə atəşkəs razılaşması deyil. Bu sənədə baxan hər kəs görəcək ki, o, təkcə atəşkəslə bağlı deyil, bir çox başqa məsələlərlə bağlıdır. Biz postmünaqişə vəziyyəti barədə düşünməliyik. Çıxışımın əvvəlində qeyd etdiyim kimi, biz səhifəni çevirməyə, irəli getməyə və regional sabitliyə töhfə verməyə hazırıq".

**"Azərbaycanın mövqeyi çox açıq və aydındır"**

**Ölkə rəhbəri qeyd edib ki, bu il və gələn il ərzində postmünaqişə vəziyyəti ilə bağlı əsas fundamental yanaşmalar işlənib hazırlanacaq:** "Azərbaycanın mövqeyi çox açıq və aydındır. Mən artıq dəfələrlə bu barədə danışmışam ki, biz postmünaqişə vəziyyətindən Cənubi Qafqazda sülhməramlı inkişafa və əməkdaşlığa keçmək istəyirik. Əfsuslar olsun ki, biz indiyədək Ermənistan hökumətindən buna bənzər nə isə eşitməmişik. Ermənistan hökuməti bizim Ermənistanla sülh sazişinə dair danışıqlara başlamaqla bağlı heç bir bəyanatımıza məhəl qoymur. Lakin ola bilsin ki, seçkiqabağı vəziyyət bu cür bəyanatlar verməK üçün çox əlverişli olmayıb. Amma indi Ermənistanda seçkilər başa çatandan sonra ümid edirik ki, müsbət cavab olacaq".

**"Bizə əvvəl də müharibə lazım deyildi"**

Prezident vurğulayıb ki, əgər bizim Ermənistanla sülh sazişimiz olmasa, bu o deməkdir ki, sülh də yoxdur: "Təkcə iki ölkə arasında deyil, həm də Cənubi Qafqazda sülh yoxdur. Bizə sülh və dayanıqlı inkişaf, proqnozlaşdırılma, sıfır müharibə riski lazımdır, bizə müharibə lazım deyil. Bizə əvvəl də müharibə lazım deyildi. Beləliklə, düşünürəm ki, bu bizim fəal əməkdaşlıq edə biləcəyimiz sahələrdir. Şadam ki, Avropa İttifaqı regional məsələlərdə öz iştirakını nümayiş etdirir. Biz Cənubi Qafqazda sülh, barışıq, inkişaf və əməkdaşlıq işinə xidmət edən istənilən iştirakı qiymətləndiririk".

**"Ermənistanın 3 lideri ilə danışıqlar aparmışam..."**

**Dövlət başçısı bəyan edib ki, Ermənistanın 3 lideri ilə danışıqlar aparmışam və bu, dünyada aparılmış istənilən növ danışıqlarda çox mənfi təcrübə idi:** "Uzun illər davam edən bu mənasız danışıqlardan sonra biz açıq-aydın dərk etdik ki, Ermənistan sülh istəmir. Onlar status-kvonu dəyişməz saxlamaq istəyirdilər. Onlar bizim torpaqlarımızı əbədi işğal altında saxlamaq istəyirdilər və onların danışıqlarda iştirakı bir növ danışıqlar prosesinin imitasiyası idi. Onlar beynəlxalq və Avropa təşkilatlarını çaşdırmağa çalışırdılar ki, onlar həll istəyirlər, Azərbaycan isə konstruktiv deyil. Son vaxtlar baş verənlər isə çox sayda təxribatçı addımlar atmış, əməllər törətmiş və müharibəyə təhrik etmiş Ermənistan hökumətinin məsuliyyətidir. Mənim mövqeyimi sübut edə bilən çox sayda dəlil var. Mən sizə cəmi bir neçə nümunə göstərəcəyəm. Ermənistanın müdafiə naziri ictimai şəkildə bəyan etdi ki, Ermənistan yeni ərazilər uğrunda yeni müharibəyə hazırlaşır. Bu, Azərbaycana qarşı açıq təhdid idi. Ermənistanın baş naziri bildirdi ki, Dağlıq Qarabağın qondarma rəhbərliyi danışıqlarda iştirak etməlidir. Bu əslində, təkcə bizim maraqlarımıza qarşı deyildi, həm də ATƏT-in Minsk qrupu və onun həmsədrlərinin işləyib hazırladığı formata qarşı idi. Bu səbəbdən də bu mövqe ATƏT-in Minsk qrupunun həmsədr ölkələrini də, yumşaq desək, bir qədər təəccübləndirmişdi. Onlar obyektiv olaraq bunu danışıqlar prosesindən çıxmaq cəhdi hesab etmişdilər. Çünki danışıqların formatı iki ölkə və ATƏT tərəfindən yaradılmışdı: Ermənistanla Azərbaycan arasında olan münaqişə.

**"İkinci Qarabağ müharibəsi qaçılmaz idi"**

**Prezident vurğulayıb ki, Ermənistan rəhbərliyinin daha bir təxribatçı bəyanatı o idi ki, "Qarabağ Ermənistandır və nöqtə".** Bu da faktiki olaraq istənilən danışıqlara son qoydu: "Birincisi, bu, çox ziddiyyətli bəyanat idi, çünki bir tərəfdən Ermənistan rəhbərliyi deyirdi ki, Qarabağ müstəqil ölkədir və Azərbaycan onunla danışıqlar aparmalıdır. Sonra da deyirdilər ki, Qarabağ Ermənistandır. Biz onlardan bunlardan hansının həqiqət olduğunu soruşduq. Əslində, onlar hər iki halda yalan danışırdılar. Lakin bu, istənilən danışıqları lazımsız və mənasız edən çox təxribatçı bəyanat idi. Minsk qrupu ölkələrinin səfirləri ilə görüşlərimdə mən gördüm ki, bu mövqe onları da bir qədər çaşdırıb və təəccübləndirir və əslində, onlar nə edəcəklərini bilmirlər. Əgər Qarabağ Ermənistandırsa, onda bu barədə nə danışmaq olar? Bu, danışıqlar prosesini tamamilə məhv etmək və torpaqları əbədi işğal altında saxlamaq üçün Ermənistan rəhbərliyinin məqsədli cəhdi idi. Lakin bu, hələ hamısı deyil. Ötən il onlar təmas xəttində və bizim dövlət sərhədində üç təxribatçı hərbi əməl törədərək mülki şəxsləri qətlə yetirdilər, kəndlərimizi bombaladılar və bizi təhrik etdilər. Beləliklə, İkinci Qarabağ müharibəsi qaçılmaz idi və bu, hər kəs üçün aydın idi".

**İsmayıl**




## Türkiyə XİN Ermənistandakı seçkiləri dəyərləndirib

### "Nəticələrin Cənubi Qafqazda sülh və sabitliyə səbəb olmasını istəyirik"

**"2010-cu ildə Türkiyə ilə Azərbaycan arasında Strateji Əməkdaşlıq Sazişi imzalanıb. Azərbaycanla Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi ilə biz bunu daha da irəli apardıq".**

APA-nın yerli bürosunun xəbərinə görə, bunu Türkiyə Xarici İşlər Nazirliyinin (XİN) sözçüsü Tanju Bilgiç deyib.

O bildirib ki, Türkiyə Ermənistanda iyunun 20-də keçirilmiş növbədənkənar parlament seçkilərinin Cənubi Qafqazda sülh və sabitliyə səbəb olmasını istəyir. XİN rəsmisinin sözlərinə görə, regional layihələrdən kənarda qalmağın ən böyük zərərini Ermənistanın özü görüb.

"Ermənistanda formalaşacaq yeni hökumətin müsbət bir gündəm ələ almasını və regional əməkdaşlıqda yerini almasını arzu edirik. Türkiyə Prezidenti də Azərbaycana son səfərində bildirdi ki, yaxşı niyyət gördüyümüz təqdirdə biz də eyni şəkildə qarşılıq verəcəyik", - deyə T. Bilgiç qeyd edib.

# Türkiyə bölgədə Qərbin təmsilçisidir

## "Moskvanın regional məsələləri Ankara ilə müzakirə etməsi onun üçün daha uyğundur"

Rusiya və Türkiyə Prezidentləri Vladimir Putin və Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı baş tutub. Danışıqlar zamanı Rusiya və Türkiyə liderləri Dağlıq Qarabağ ətrafındakı vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar, atəşkəsə nəzarət üzrə Rusiya-Türkiyə Birgə Mərkəzinin fəaliyyətinə müsbət qiymət verilib.



Türkiyə Prezidenti Rusiya, Ermənistan və Azərbaycan liderlərinin 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli bəyanatlarında təsbit olunmuş razılaşmaların tam şəkildə həyata keçirilməsini təmin etmək üçün Rusiyanın səylərini dəstəklədiyini bildirib. İqtisadi inkişaf və regionun nəqliyyat infrastrukturunun bərpası maraqları daxil olmaqla koordinasiyanı davam etdirməyə qarşılıqlı hazırlıq ifadə olunub.

**Keçmiş xarici işlər Tofiq Zülfüqarov tərəflər arasındakı telefon danışığını "Şərq"ə şərh edib:** "Əvvəla, onu deyim ki, dövlət başçıları arasında təkcə Qarabağ yox, başqa məsələlər də müzakirə oluna bilər. Hər halda Türkiyə Rusiya ilə münasibətlərdə bundan sonra Qərbin təmsilçisi kimi çıxış edəcək. Bu, tərəflər arasındakı partnyorluq əlaqələrini korlaya bilər. İkinci bir tərəfdən isə Qərblə Rusiya əlaqələrinin heç də müsbət məcrada inkişaf etmədiyini nəzərə almalıyıq. Əksinə, gərginlik tədricən artır. Deməli, Moskvanın regional məsələləri Ankara ilə müzakirə etməsi onun üçün daha uyğundur. Belə ki, dövlətlər arasında müəyyən ziddiyyətlərin olmasına rəğmən, qarşılıqlı inam və etibar problemləri aradan qaldırmağa imkan yaradır. Zənnimcə, təmasların nəticəsini yaxın zamanda görəcəyik".

**Kənan**



# Azərbaycan tarixinin ən güclü ordusunu qurub

## Silahlı Qüvvələr gününü bu dəfə Zəfərimizlə qeyd edirik

Parlamentin dünənki iclasında 26 iyun Silahlı Qüvvələr günü münasibəti ilə çıxışlar olub. Deputatlar qalib Azərbaycan Ordusunu və müzəffər Ali Baş Komandan İlham Əliyevi təbrik ediblər. Milli Məclisin sədri Sahibə Qafarova deyib ki,Silahlı Qüvvələrimiz öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirir. Spiker vurğulayıb ki, bu il Azərbaycan xalqı Silahlı Qüvvələr gününü böyük sevinc və qürur hissi ilə qeyd edir:

”Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu xalqımızın qəhrəmanlıq tarixinə yeni parlaq səhifələr yazıb. Azərbaycan torpaqlarını 30 ildən bəri işğal altında saxlamış Ermənistan silahlı qüvvələri darmadağın edilib. Əzəli və tarixi torpağımız olan Qarabağ mənfur düşmənin əsarətindən xilas olub. Tarixi ədalətin öz yerini tutması, dövlətimizin ərazi bütövlüyünün bərpa olunması xalqımızın özünə inamını qaytarıb və ruhunu təzələyib. Bu gün biz yurd yerlərimizə, doğma Qarabağa qayıdırıq. Bu haqqı bizə qəhrəman ordumuz, onun Ali Baş Komandanı qaytarıb. Biz şəhidlərimizin, qanlı döyüşlərdə yaralanmış əsgər və zabitlərimizin igidliyini və fədakarlığını heç zaman unutmayacağıq”.

**“Xalqımız hərbçilərimizlə haqlı olaraq fəxr edir”**

Sədr vurğulayıb ki, bu gün Silahlı Qüvvələrimiz işğaldan azad olunmuş bölgənin müdafiəsi, dövlət sərhədlərimizin qorunması naminə öhdələrinə düşən vəzifələri layiqincə yerinə yetirir: ”Xalqımız həm Vətən müharibəsi dövründə, həm də bu gün, dinc dövrdə ölkəmizin hərbi təhlükəsizliyinin təmin edilməsində fədakarlıq göstərən hərbçilərimizlə haqlı olaraq fəxr edir. Biz əminik ki, Azərbaycan Silahlı Qüvvələri qarşıdakı illərdə də inkişaf edəcək və dünyanın ən güclü orduları sırasında öz yerini möhkəmləndirəcək. Silahlı Qüvvələr günü münasibətilə biz müzəffər Ali Baş Komandanı, Silahlı Qüvvələrin qəhrəman əsgər və zabitlərini, bütün hərbi qulluqçularımızı ürəkdən təbrik edir, Azərbaycanın mənafelərinin qorunması naminə şərəfli missiyalarını həyata keçirməkdə onlara yeni uğurlar arzulayırıq”.

**“Qarabağ Azərbaycanın inkişaf tarixində yeni bir dövr açacaq”**

S.Qafarovanın sözlərinə görə, Azərbaycan xalqı əmindir ki, işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işləri nəinki Qarabağ bölgəsinin mənzərəsini kökündən dəyişəcək, həm də bütün Azərbaycanın inkişaf tarixində yeni bir dövr açacaq: ”Azərbaycan bayrağını Şuşada, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Laçında, Kəlbəcərdə, Ağdamda, Hadrutda, Qarabağın digər şəhər və kəndlərində dalğalandıran qalib xalqımız erməni vandalları tərəfindən viran qoyulmuş yaşayış məntəqələrimizi bərpa edib qurucu xalq olduğunu bir daha dünyaya nümayiş etdirəcək”.

**“Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü ordularındandır”**

Millət vəkili, tarixçi-alim Musa Qasımlı Ali Baş Komandanın Azərbaycanı qalib xalqa çevirdiyini vurğulayıb. Tarixçi SSRİ dövründə azərbaycanlıların orduda daha çox tikinti və digər işlərə yönləndirildiyini xatırladıb: ”Bu tendensiyanı Heydər Əliyev dəyişib. Ümummilli lider Cəmşid Naxçıvanski adına liseyin açılmasına da nail olub və bu lisey müstəqil Azərbaycanda dövlət quruculuğunda mühüm yer tutub”. Parlamentin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva Azərbaycan Respublikasının Silahlı Qüvvələri gününün ilk dəfə Zəfər ilinə təsadüf etdiyini söyləyib və Ali Baş Komandanın rəhbərliyi ilə ordu quruculuğunun uğurla davam etdiriləcəyini vurğulayıb. Deputat Siyavuş Novruzov torpaqları işğaldan azad edən Azərbaycan Ordusunun ən güclü ordulardan biri olduğunu qeyd edib. Millət vəkili Elşad Mirbəşiroğlu da Azərbaycan Ordusunun Vətən müharibəsində dünyanın ən güclü ordularından biri olduğunu nümayiş etdirdiyini vurğulayıb. Parlament üzvü Cavid Osmanov dünyanın ən güclü ordularından birinin qurulduğunu bildirib: ”Azərbaycanın ”dəmir yumruğu”nun gücü hələ də Ermənistanı silkələməkdədir. Tovuz istiqamətində törədilən dünənki təxribat göstərir ki, Ermənistanda böhran hələ də davam etməkdədir”.

**İsmayıl**



# Həkim, müəllim də ilkin mərhələdə Qarabağa köçürülməlidir

## “Qayıdışa yanaşma da ağıllı olmalıdır”

**Ötən gün Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev işğaldan azad edilmiş ərazilərə köçürüləcək insanlardan danışıb.**

O deyib ki, ilk növbədə yaxşı şəraitdə yaşamayan insanlara kömək ediləcək. Onun sözlərinə görə, Ermənistanın işğalından azad olunmuş ərazilərdə şəhərlər və kəndlər abadlaşdırıldıqdan sonra ora ilk növbədə məhz daimi yaşayış yeri ilə təmin edilməmiş vətəndaşlar köçürüləcək: ”Kifayət qədər müasir şəraitdə yaşayan məcburi köçkünlər də həmin ərazilərə qaytarılacaq, lakin biz ilk növbədə yaxşı şəraitdə yaşamayan insanlara kömək edəcəyik”.

**Mövzu ilə bağlı Müstəqil Jurnalistlərə Texniki və Hüquqi Yardım İctimai Birliyinin sədri Asəf Quliyev ”Şərq”ə açıqlamasında bildirib ki, köçürülmə elmi əsaslarla olmalıdır:** ”Əgər bu, hökumətin qərarıdırsa, müzakirə edilmir. Yəqin ki, elə belə də olacaq. İlk baxışda məntiqli görünə də bilər. Amma söhbət məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılmasından getmir. Söhbət insanların doğma yurduna dönüşündən gedir. Bu məsələdə prinsip başqa cür qurulmalıdır. Təsəvvür edin ki, mənzil şəraiti ağır olan insanlar köçürülür, amma həyat şəraiti yaxşı olan həkim, müəllim və sair saxlanılır sonrakı mərhələyə. Bəs ora köçən insanların təhsil və ya tibbi təminatı necə olacaq? Əlbəttə ki, bu çox bəsit bir misaldır. Demək istədiyim odur ki, köçürülmədə mənzil şəraitinin yaxşı və ya pis olması mühüm prinsipi kimi təqdim oluna bilər. Amma birinci dərəcəli prinsip deyil, bu, prinsiplərdən biridir. Bunun üçün sosial araşdırmalar aparılmalı və köçürülmə elmi əsaslarla olmalıdır”.

**A.Quliyev vurğulayıb ki, proses göründüyü qədər də bəsit deyil:** ”Nəzərə alsaq ki, bərpa olunan şəhər və kəndlər ”ağıllı” brendi ilə salınır, qayıdışa yanaşma da ağıllı olmalıdır”.

**Aynurə**

# Gec-tez sülh bərqərar olacaq

> “Zəngəzur dəhlizi açıldıqdan sonra regiondakı bütün ölkələr bu dəhlizin faydasını hiss edəcəklər”

Prezident İlham Əliyev Azərbaycana səfər edən Ruminiya Xarici işlər naziri Boqdan Aureskunu, Avstriyanın Xarici işlər naziri Aleksandr Şallenberqi, Litvanın Xarici işlər naziri Qabrielius Landsbergisi və Avropa İttifaqının nümayəndə heyətini qəbul edib.

Ölkə başçısı bildirib ki, biz üç il əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığını dəstəkləyən tərəfdaşlıq prioritetlərinə dair sənədi parafladıq: ”Bu, yeni hərtərəfli sazişin razılaşdırılması istiqamətində çox mühüm addım oldu. Mən başa düşdüyüm qədərilə sizin regiona səfəriniz Ermənistanla Azərbaycan arasında münaqişədən sonra yaranmış hazırkı vəziyyətə həsr olunub.

Mən artıq dəfələrlə bu barədə danışmışam ki, biz postmünaqişə vəziyyətindən Cənubi Qafqazda sülhməramlı inkişafa və əməkdaşlığa keçmək istəyirik. Əfsuslar olsun ki, indiyədək Ermənistan hökumətindən buna bənzər nə isə eşitməmişik. Ermənistan hökuməti bizim Ermənistanla sülh sazişinə dair danışıqlara başlamaqla bağlı heç bir bəyanatımıza məhəl qoymur. Lakin ola bilsin ki, seçkiqabağı vəziyyət bu cür bəyanatlar vermək üçün çox əlverişli olmayıb. Amma indi Ermənistanda seçkilər başa çatandan sonra ümid edirik ki, müsbət cavab olacaq”.

**Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, politoloq Tural İsmayılovun sözlərinə görə, ölkə başçısı dəfələrlə vurğulayıb ki, Azərbaycan bundan sonra Ermənistanla sülhün olmasında maraqlıdır:** ”Eyni zamanda Prezident İlham Əliyevlə türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğan regionda yaranacaq ”Altılıq” platformasının önəmindən bəhs ediblər. Artıq Rusiya, İran və Gürcüstan bu platformaya öz maraqlarını bildiriblər. Seçkiqabağı Ermənistandakı xaotik və gərgin vəziyyəti nəzərə alaraq iqtidardan namizəd olan, alternativ fikirlər söyləyən müxalifətçilər tərəfindən təəssüf ki, sülh sazişi və gələcəkdə formalaşacaq etimad mühiti ilə bağlı dürüst açıqlamalar verilmirdi. Ancaq seçkilərdən sonra Ermənistandan gözləntilərimiz var. Həm 10 noyabr 2020-ci il, həm də 11 yanvar 2021-ci il bəyanatının imzalanması zamanı əldə olunan razılıq, həmçinin Azərbaycanla Türkiyə arasındakı Şuşa Bəyannaməsi Zəngəzur dəhlizinin açılmasını zəruri edir”.



**T.İsmayılov vurğulayıb ki, Zəngəzur dəhlizi açıldıqdan sonra regiondakı bütün ölkələr bu dəhlizin faydasını hiss edəcəklər:**

”Dəhliz açıldıqdan sonra avtomatik olaraq Ermənistanla Azərbaycan arasında sülh və etimad mühiti formalaşa bilər. Təbii ki, bunun üçün Ermənistan ilk olaraq minalanmış digər ərazilərin xəritəsini verməli, sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlı ölkəmizin ərazi bütövlüyünü tanımalı, bundan sonra Qarabağla bağlı hansısa təxribatçı açıqlama verib, addımlar atmamalıdır. Bunlar olarsa, əlbəttə ki, regionda sülh bərqərar olacaq. Lakin cənab Prezidentin bu gün vurğuladığı kimi, bu şərtlərin heç biri olmasa, Azərbaycanın ”Dəmir yumruğu” yerindədir. Bununla da Ermənistan tamamilə məhv olma astanasına gələcək. Fikrimcə, bundan sonra Nikol Paşinyanın belə ağılsızlıq etmək imkanları yoxdur”.

**Yeganə Bayramova**

# Telefon trafikləri ümidlər yaradıb

Üçtərəfli razılaşmanın icrası ilə bağlı konkret addımlar atılacaq

İyunun 24-də Rusiya Prezidenti Vladimir Putinlə Ermənistanda Baş nazirin səlahiyyətlərini icra edən Nikol Paşinyan arasında telefon danışığı olub. Kremlin rəsmi saytında dərc edilmiş məlumata görə, Putin Paşinyanı və onun "Vətəndaş Müqaviləsi" Partiyasını iyunun 20-də keçirilmiş parlament seçkisindəki qələbəsi münasibətilə təbrik edib, hökumətin təşkilində uğurlar arzulayıb.



## Ərdoğanla Putin Qarabağın tam həllinə dair son müzakirələrini aparır

Rəhbərlər Dağlıq Qarabağla əlaqədar fikir mübadiləsi də aparıblar. Söhbət zamanı regionda stabilliyin bərqərar edilməsi üçün Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanmış üçtərəfli bəyanatların icrasının əhəmiyyəti vurğulanıb. Putin və Paşinyan şəxsi təmaslarını davam etdirəcəklərinə dair razılığa gəliblər.

Paşinyanla təmasdan sonra Rusiya rəhbəri ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında da telefon danışığı baş tutub. Liderlər Qarabağdakı vəziyyətlə bağlı son vəziyyəti müzakirə edib. Dövlət başçıları Rusiya-Türkiyə hərbçilərinin birgə fəaliyyətini müsbət qiymətləndiriblər. Hər iki lider bölgədəki iqtisadi inkişaf və nəqliyyat infrastrukturunun bərpası daxil olmaqla koordinasiyanı davam etdirməyə hazır olduqlarını bildirib. Xatırladaq ki, iki gün öncə Rusiya Prezidenti V.Putin Qarabağ ətrafında baş verənləri Azərbaycan dövlət başçısı İlham Əliyevlə müzakirə etmişdi.

**Bölgədə cərəyan edən prosesləri "Şərq"ə dəyərləndirən siyasi şərhçi Asif Nərimanlı vurğulayıb ki, Rusiya prezidentinin Bakı və İrəvanla təmas qurandan sonra Türkiyə prezidenti ilə müzakirə aparması tərəflər arasında konkret addımların atılması ilə bağlı razılığa gəlindiyi qənaətini gücləndirir.** Analitikin fikrincə, bunun nədən ibarət olduğu rəsmi informasiyalarda əksini tapıb. Söhbət üçtərəfli razılaşmaların icra edilməsindən gedir: "Əsas müzakirə mövzusunun nə olduğu haqda ehtimal irəli sürmək üçün telefon trafikinin haradan başlandığına - Bakıya baxmaq lazımdır. Putinə dövlət başçısı İlham Əliyev zəng etdi, ardınca Moskvadan İrəvana zəng edildi. Bu, üç ehtimalı önə çıxarır. Birincisi, Bakı üçtərəfli razılaşmaların tam şəkildə həyata keçirilməsində israrlıdır. Xüsusən, indiyə qədər icra edilməyən 4-cü bəndində, yəni erməni qoşunlarının Qarabağdan çıxarılması məsələsində tələbkardır. Ermənistanda seçkidən sonra gözlənilən də bu idi. İkincisi, ölkə başçısı İlham Əliyevin zəngindən bir gün sonra Putinin Paşinyanla danışması Moskvanın Bakının istəyi ilə razılaşdığını göstərir. Üçüncüsü isə Putinin sonda Türkiyə lideri Ərdoğanla danışması Ermənistanın da "razlaşmaların tam icra edilməsinin vacibliyini" qəbul etdiyinə dəlalət edir. Eyni zamanda Rusiyanın prosesə bağlı bölgədə tərəf olaraq qəbul etdiyi Türkiyəni məlumatlandırdığı anlamına gəlir".

*Ekspertin fikrincə, razılaşmalarla bağlı mövcud vəziyyət və mümkün gözləntilər də bu ehtimalları gücləndirir:* "Üçtərəfli razılaşmaların tam şəkildə icra edilməsindən bəhs edilirsə, yeganə irəliləyiş olmayan məsələ məhz erməni qoşunların çıxarılmasıdır. Rusiyanın vasitəçiliyi ilə sərhədlərlə bağlı yeni müqavilə gündəmdədir və belə bir sənədin müzakirəyə çıxarılması üçün öncə üçtərəfli razılaşmaların bütün bəndləri üzrə ən azından müəyyən irəliləyiş olmalıdır. Putin-Ərdoğan müzakirəsində Ağdamdakı Türkiyə-Rusiya Monitorinq Mərkəzinin fəaliyyətinə toxunulması da erməni qoşunların çıxarılmasından sonra bölgədə vəziyyətin idarə olunması məsələsinin ələ alındığı fikrini önə çıxarır. Qarşıdakı dövrdə liderlərin təmaslarının intensivləşəcəyini görə bilərik. O da istisna deyil ki, növbəti dəfə erməni diversantlarla mina xəritələrinin "barter" edilməsi Rusiya və Türkiyənin vasitəçiliyi ilə həyata keçiriləcək. Telefon trafikində müzakirə olunan əlavə məsələlərdən biri də bu ola bilər".

**İsmayıl Qocayev**

## Qərb təsir gücünü bərpa etmək istəyir

Çünki regionda Türkiyə və Rusiyaya uduzdu



**Prezident İlham Əliyev bu gün Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə Ali nümayəndəsi Cozef Borelin mandatı əsasında üç ölkənin XİN başçısını qəbul edib.**

Azərbaycana səfər edən Rumıniyanın Xarici işlər naziri Boqdan Aureskunu, Avstriyanın Xarici işlər naziri Aleksandr Şallenberqi, Litvanın Xarici işlər naziri Qabrielius Landsbergisi və Avropa İttifaqının nümayəndə heyəti ilə görüş keçirilib.

**AĞ partiya sədrinin müavini, politoloq Əhəd Məmmədli üç ölkə rəsmisinin ölkəmizə səfərini "Şərq"ə şərh edib:** "Qarabağ müharibəsindəki qələbədən sonra Azərbaycanın nüfuzu artdı. Beləliklə, Aİ təkcə neft ölkəsi kimi deyil, həm də hərbi qüdrətli tərəf kimi bizimlə əməkdaşlıqda maraqlıdır. İkinci bir tərəfdən isə Qərb regionda Türkiyə və Rusiyaya uduzdu. İndi Aİ-nin timsalında itirilmiş təsir gücünü bərpa etmək istəyir".

**Kənan**

## Ermənistanın təxribatlarına dərhal cavab verilməlidir ki...

Düşmən bir daha belə arzuya düşməsin

**Srağagün Ermənistan silahlı qüvvələrinin bölmələri Berd rayonunun Ayqedzor kəndi yaxınlığında yerləşən mövqelərdən Tovuz rayonu Muncuqlu kəndi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan atəşə tutub.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Azərbaycan Ordusunun şəxsi heyəti arasında həlak olan və yaralanan yoxdur. Hazırda bu istiqamətdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

**Keçmiş baş nazir, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn bu barədə "Şərq"ə açıqlamasında bildirdi ki, düşmənə adekvat reaksiya göstərmək lazımdır:** "Təxribatın Ermənistandakı iqtidarın, yaxud revanşistlərin əməli olduğunu deyə bilmərəm. Bütün hallarda Müdafiə Nazirliyinin yaydığı məlumat əsas götürülməlidir. Və hər provokasiyaya elə cavab verilməlidir ki, düşmən bir daha belə arzuya düşməsin. Təxribatı Ermənistanda seçkilərdən sonrakı vəziyyət və rus silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhədinə yerləşdirilməsi meyilləri ilə izah edənlər var. Odur ki, məsələ ən qısa zamanda birdəfəlik həllini tapmalıdır: ya hərbi, ya da siyasi yolla".

**Kənan**

# Erməni politoloq Paşinyanın dili ilə danışır

*Məğlub ölkə qısa müddətdə Azərbaycanın ərazi bütövlüyünü tanımalıdır*



Erməni politoloq Suren Sarkisyan Azərbaycanla Ermənistan arasında imzalanacaq sazişin ilkin senarisi barədə danışıb. Onun iddiasına görə, əgər İrəvan Bakı ilə anlaşarsa, bu, Ermənistanın bir çox tələblərdən imtinasına gətirib çıxaracaq.

O qeyd edib ki, ilkin senariyə əsasən Azərbaycanla bağlanacaq sazişdə Azərbaycanın ərazi bütövlüyünün tanınması, Azərbaycana hər hansı bir ərazi iddiası irəli sürülməsindən imtina olunması, diplomatik əlaqələrin bərpa edilməsi və sərhədlərin açılması və Azərbaycan-Ermənistan sərhədlərinin dəqiqləşdirilməsinə start verilməsi kimi məsələlər yer alacaq. Qeyd olunub ki, bu zaman Ermənistanın ərazilərinin bir hissəsi Azərbaycana veriləcək. O, Ermənistanın ordu saxlamayacağı barədə öhdəlik götürəcəyini istisna etmir. Yalnız müəyyən sayda hərbi polis saxlayacaq. Necə ki, İkinci Dünya müharibəsindən sonra Yaponiya da belə bir addım atmışdı.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, politoloq Tural İsmayılov bildirib** ki, Suren Sarkisyanın səsləndirdiyi iddialar 10 noyabr bəyanatından irəli gələn müddəaların məntiqi davamıdır. Eyni zamanda 11 yanvarda Azərbaycan, Ermənistan və Rusiya baş nazirinin müavinlərinin görüşündə də bu məsələlər müzakirə olunub: "Əgər regionda onlar sülh olmasını istəyirlərsə, eyni zamanda bütün ölkədə sabitlik və ictimai barış mühitinin qalmağını istəyirlərsə, mütləqdir ki, Ermənistanın Azərbaycana qarşı təxribatları son tapsın. Qeyd edim ki, Suren Sarkisyanın irəli sürdüyü bəndlər arasında Azərbaycanın ərazi bütövlüyünün tanınması məsələsi də var. Elə sərhədlərin delimitasiya və demarkasiya ilə bağlı işlərin görülməsi də məhz ölkəmizin ərazi bütövlüyünün bərpa olunmasına hesablanıb. Çünki Sovet İttifaqı dağıldıqdan sonra başlanan Qarabağ münaqişəsi və Ermənistanın təxribatları nəticəsində 30 ildən çoxdur ki, Azərbaycan sərhədləri öz layiq olduğu qiyməti almırdı və bərpa olunmurdu. Bu baxımdan Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, tanınması, eyni zamanda Azərbaycan sərhədlərinin toxunulmazlığı və digər məsələlər Ermənistan tərəfindən mütləq həyata keçirilməlidir. Xüsusən növbədənkənar parlament seçkiləri başa çatdıqdan sonra artıq bu bəyanatın, xüsusilə də 10 noyabr bəyanatının yerinə yetirilməsi ilə bağlı vaxt uzatmaq olmaz. Həmçinin orada yer alan Azərbaycan və Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsində də qeyd edilən Zəngəzur dəhlizi və digər məsələlər də təcili və təxirəsalınmadan həyata keçirilməlidir. Bu baxımdan Suren Sarkisyanın söylədiyi məsələlərin real olduğunu düşünürəm".

*T.İsmayılov hesab edir ki, ola bilsin ki, hökumət tərəfindən və yaxud da Paşinyan komandasından kimlərsə Suren Sarkisyana daha əvvəldən bu fikirləri söylətdirərək erməni ictimaiyyətinin nəbzini yoxlamaq istəyir:* "Amma bütövlükdə 44 günlük Vətən müharibəsində aldıqları biabırçı məğlubiyyət və kapitulyasiyaya baxmayaraq növbədənkənar parlament seçkilərində erməni xalqının böyük əksəriyyətinin Nikol Paşinyana səs verməsi də əslində erməni xalqının da bütövlükdə regiondakı münaqişələrdən bezdiyini göstərir. Onlar Ermənistanın dövlət olaraq məhv astanasında olduqlarını artıq dərk edirlər. Ümid edirəm ki, bundan sonra təxribatlar baş verməyəcək. Və Nikol Paşinyan əvvəlki sərsəmliklərindən əl çəkərək regionda bütün dövlətlər üçün ictimai etimad mühitinin yaradılmasını əngəlləməyəcək. Bu təkcə digər dövlətlər üçün deyil, ən başda erməni xalqı və Ermənistan dövlətinin mövcudluğu üçün labüddür".

**Aynurə Pənahqızı**

# Deputatlar kəskin etiraz etdilər

## Vəkillərin 500 manata qədər cərimələnməsi məsələsinə yenidən baxılmalıdır



*Məhkəmə açıq-aşkar əsassız vəsatət və şikayətlər verən, yaxud işə düzgün və tezliklə baxılmasına və onun həll edilməsinə aşkar surətdə maneçilik törədən tərəfi, onun nümayəndəsini və ya vəkilini 500 manatadək cərimə edə bilər. Bu məsələ Milli Məclisin iyunun 25-də keçirilmiş iclasında "Mülki Prosessual Məcəlləyə" təklif edilən yeni maddədə əksini tapıb.*

Layihəyə əsasən, cərimənin məbləği məhkəmə tərəfindən konkret hallar nəzərə alınmaqla ağlabatan miqdarda müəyyən edilməlidir. Vəkillərin 500 manata qədər cərimələnməsi ilə bağlı məsələ parlamentdə mübahisə yaradıb. Birinci vitse-spiker, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, ”Mülki Prosessual Məcəllə”yə nəzərdə tutulan dəyişikliklər bu il oktyabrın 1-də qüvvəyə minməlidir. Ona görə də qısa müddətdə növbədənkənar sessiyada bu qanun qəbul edilməlidir.

**“Məqsəd məhkəmə prosesinin uzadılmasının qarşısını almaqdır”**

Ə.Hüseynli deyib ki, bəzən vəkillər məhkəmə prosesinin müxtəlif mərhələlərində sübutlar təqdim etməklə prosesi uzadırlar: ”Ona görə də sübutlar hazırlıq mərhələsində təqdim edilməlidir və layihədə bu məsələ nəzərdə tutulub. Məqsəd məhkəmə prosesinin uzadılmasının qarşısını almaqdır”. Parlamentin komitə sədri bildirib ki, vəkillərin 500 manatadək cərimələnməsi ilə bağlı narazılıqlar var, xüsusən vəkillər narazılıqlarını bildirirlər: ”Digər qanunvericilik aktında indiyə qədər belə hallarla bağlı 55 manat cərimə onsuz da nəzərdə tutulmuşdu. Narazılıq əsasən 500 manat məbləği ilə bağlıdır. Bu narazılıqların aradan qaldırılması üçün ikinci oxunuşa qədər vəkillər və deputatların iştirakı ilə bağlı müzakirələr keçiriləcək”.

**“İnsanların məhkəməyə etimadı artmalıdır”**

**Millət vəkili Azay Quliyev də layihəyə dəstək verib. Onun sözlərinə görə, məqsəd insanların məhkəməyə etimadını artırmaqdır:** ”Məsələn, hazırlıq institutları gücləndirilir. Yazılı icraat institutu da yeni institut olacaq. İnsanlar yazılı şəkildə hüquqi arqumentlərini təqdim edirlər və şəffaflıq da artır. Digər tərəfdən, əsassız vəsatət qaldırılmasına görə cərimə müəyyənləşirsə, məqsəd belə əsassız halların qarşısını almaqdır. Ona görə də biz bunu dəstəkləməliyik”.

**“Bu, düzgün deyil...”**

**Parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc isə bildirib ki, artırılan məhkəmə rüsumlarının 50 faizinin məhkəmə aparatı işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəldiləcəyi bildirilir. Bu, düzgün deyil:** ”Vətəndaşların hesabına məhkəmə aparatı işçilərinin sosial durumunun yaxşılaşdırılması prinsipi yanlışdır”.

**“Vəkillərin 500 manatadək cərimələnməsi absurddur”**

**Millət vəkili Fazil Mustafa da vəkillərin 500 manatadək cərimələnməsinə etirazını bildirib. Deputat deyib ki, bu, absurddur:** ”Məsələn, biz deputat olaraq bizə müraciət edən vətəndaşlarla bağlı dövlət qurumuna müraciət edirik. O zaman həmin dövlət qurumu da bizim müraciətimizin əsassız olduğunu yazmalı və bizi də cərimələməlidir? Bu, tamamilə absurddur. Digər tərəfdən, rüsumlar hesabına hansısa qurumların işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılması məsələsini tamamilə aradan qaldırmaq lazımdır”.

**“Kasıb insanlar cərimələrdən azad olunmalıdır”**

**Parlamentin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva son illərdə vəkillərin sayının 840 nəfərdən 2025-ə qaldırıldığını söyləyib:** ”Məhkəmə açıq-aşkar əsassız vəsatət və şikayətlər verən, prosesə maneçilik törədən tərəfi, vəkili 500 manatadək cərimə edəcək və burada təkcə vəkildən söhbət getmir. Kasıb insanlar bu cərimələrdən azad olunmalıdır. Ümumiyyətlə, cərimənin məbləği məsələsinə yenidən baxılmalıdır ki, narazılıq olmasın. Digər tərəfdən, əsassız qərarlar verən hakimlər hansı cəriməni ödəyirlər? Bir məqamı da deyim. Məhkəmə ilə bağlı rüsum 20 manatdan 100 manata qaldırılır. Elə insanlar var ki, ünvanlı sosial yardım belə ala bilmir. Bu insanlar rüsumu necə ödəyəcək? İnsanlar axışıb biz deputatlara müraciət edəcəklər ki, yardım edin, rüsuma gücümüz çatmır, yaxud məhkəmədə bizi cərimələyirlər. Ona görə də müzakirələr aparıb, cərimənin məbləği məsələsinə yenidən baxılsa, yaxşı olar”.

Millət vəkili Əziz Ələkbərov da cərimə məsələsinə etiraz edib, bunun dövlətin hazırda yürütdüyü siyasətə zidd olduğunu vurğulayıb.

**İsmayıl Qocayev**



## Moskvanın vasitəçiliyindən imtina etməliyik

### Fərəc Quliyev: “Öz işimizi özümüz sona çatdırası olacağıq”

**Son vaxtlar, xüsusilə Ermənistanda Nikol Paşinyan iqtidarını bərpa etdikdən sonra rəsmi Bakı ilə Moskva arasında təmaslar güclənib.**

Məlum olduğu kimi, bir çox mühüm məsələlər, o cümlədən Şuşada qalıqları tapılan ”İsgəndər-M” raketinin hardan, necə, niyə atılması indiyədək qaranlıqdır. Heç olmasa, bundan sonra proseslərin aydınlanacağına ümid edirik.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev bu barədə ”Şərq”ə danışıb:** ”Əslində məsələ tamamilə aydındır. İki mümkün senari var. Bunlardan birincisi raketin Rusiyanın Ermənistandakı hərbi bazasından atılması, digəri isə silahın İrəvana verilməsidir. Hər iki halda Moskva günahkardır. Hər kəs -bütün dünya bu həqiqəti bilir. Biz təzyiq aləti kimi bu məsələdən yararlana bilərik. Ölkəmizə qarşı hansısa xoşagəlməz addım atılarsa, dərhal ”qırmızı kart” göstərməliyik. Məlum hadisədən sonra həm İrəvan, həm də Moskva bizim qarşımızda gözü kölgəlidir”.

***F.Quliyev, həmçinin minalı ərazilərin xəritəsindən söz açıb:*** ”Paşinyan xəritəni Rusiyaya verdiyini demişdi. Amma Lavrov bunu təkzib etdi. İkinci bir tərəfdən, üçtərəfli sazişə uyğun olaraq bütün silahlı qüvvələr ərazidən çıxarılmalı idi. Minanın da silahın bir növü olduğu nəzərə alınmalıdır. Görünür, Kreml sadəcə bu məsələdə maraqlı deyil. Haqqında danışdığımız ”İsgəndər”in Şuşaya atılması şimal qonşumuzun vasitəçiliyinə, sülhməramlılığına kölgə salır. Məncə, biz Moskvanın vasitəçiliyindən imtina edib, öz işimizi özümüz sona çatdırası olacağıq”.

**Kənan**



# Üçtərəfli razılaşmanın icrasında problem görünmür

## Paşinyan ancaq Zəngəzur dəhlizi ilə bağlı cığallıq edə bilər

**Rusiya Prezidenti Vladimir Putin ilə Ermənistan Baş naziri Nikol Paşinyan arasında telefon danışığı baş tutub. Tərəflər söhbət zamanı Qarabağla bağlı razılaşmaların icrasına da toxunub.**

Kremlin saytında verilən məlumata görə, Rusiya lideri Paşinyanı rəhbərlik etdiyi ”Vətəndaş sazişi” Partiyasının erkən seçkilərdə qazandığı qələbə münasibətilə təbrik edib.

”Dağlıq Qarabağla bağlı fikir mübadiləsi zamanı Rusiya, Ermənistan, Azərbaycan liderlərinin 2020-ci il 9 noyabr və 2021-ci il 11 yanvar tarixli razılaşmalarının davamlı həyata keçirilməsinin vacibliyi vurğulanıb. Rusiya tərəfi regionda sabitliyi təmin etmək üçün hərtərəfli vasitəçilik səylərini davam etdirəcək” - məlumatda qeyd olunub.



**Telefon danışığını ”Şərq”ə dəyərləndirən siyasi analitik Turab Rzayev bildirib ki, yeni mərhələdə üçtərəfli razılaşmaların icrasına dair problem olmamalıdır:** ”Paşinyanın sülh bəyanatını yerinə yetirməkdən imtina etməsi mümkün deyil. Amma sırf xüsusi bəndlərlə bağlı müəyyən cığallıq edə bilər. Xüsusi bəndlər dedikdə Zəngəzur dəhlizi barədə razılaşmadan çəkinməyi nəzərdə tuturam. Paşinyan iki dəfə üçtərəfli bəyanatın imzalanmasına baxmayaraq, qaçmağa çalışır. Qarabağda erməni silahlı birləşmələrinin çıxarılma məsələsi və delimitasiyaya dair də müəyyən problemlər yarada bilər. Digər məsələ Dağlıq Qarabağın tanınmasına dair dünya ictimaiyyətinə müraciət ediblər. Bu məsələni gündəmə gətirməklə, guya, öz ağıllarınca Azərbaycanda narahatlıq yaratmağa çalışırlar. Paşinyanın yarada biləcəyi maksimum problemlər bunlarla bağlıdır.

Srağagün Tovuzda atışma oldu. Düşünmürəm ki, bu, Paşinyanla əlaqəlidir. Ermənistan daxilində Paşinyanı istəməyən qüvvələr onu pis vəziyyətə qoymaq üçün Azərbaycan ərazisinə terrorçu qrup göndərə bilər”.

**Yeganə Bayramova**

# Polisdən və digər iş yerlərindən qovulanlar vəkilliyə üz tutur

## “Özünə ailə qura bilməyənlər bu gün TV-lərdə ailə məsələlərinə münasibət bildirirlər”

*Milli Məclisin iclasında "Mediasiya haqqında" qanuna təklif edilən dəyişiklik də geniş müzakirələrə səbəb olub. Qeyd edək ki, Mediasiya prosesinə dair tələblər dəyişir. Mediasiya təşkilatı mediasiyanın inkişaf etdirilməsi və təkmilləşdirilməsi məqsədilə qeyri-kommersiya hüquqi şəxs olacaq.*

Qüvvədə olan qanuna əsasən, mediasiya təşkilatı hüquqi şəxs statusunda idi. ”Mediasiya haqqında” qanuna görə, kommersiya mübahisələri, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə müraciət etməmişdən əvvəl ilkin mediasiya sessiyasında iştirak tələb olunacaq. Bir sıra maddələr ləğv olunacaq. Mediatorun da vəzifəsi artırılıb. Artıq tərəflər deyil, mediator uşağın böyüməsinə, inkişafına və digər maraqlarına toxunan barışıq sazişini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana təqdim etməyə borclu olacaq. Qanun layihəsi səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edilib.



### “Mediasiya haqqında” qanuna dəyişikliklər qəbul olundu, amma problemlər çoxdur

### “Hazırda 294 mediator təlimdən keçib, sertifikatları var”

**Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, hazırda 294 mediator təlimdən keçib, sertifikatları var.** Ə.Hüseynli deyib ki, ”Mediasiya haqqında” qanun faktiki olaraq iyulun 1-dən qüvvəyə minəcək: ”Mediatorlar üçün 25 yaş, 3 il iş stajı tələbi qoyuldu, hüquq təhsili şərt kimi irəli sürülmədi. Ancaq buna baxmayaraq, sertifikat alanların yarıdan çoxu hüquqşünasdır”.

### “Burada hüquqşünasdan çox psixoloqlara ehtiyac var”

**Millət vəkili Aqiyə Naxçıvanlı vurğulayıb ki, elə ailələr var ki, artıq onların ailə kimi qalması mümkün deyil, münasibətlər tam pozulub:** ”Bu halda məhkəmədən əvvəl mediasiya sessiyalarında məcburi iştirak tələbi nə dərəcədə məqbuldur?”. Mediasiya sessiyasında ödənişləri düzgün saymayan A.Naxçıvanlı yetərli sayda mediatorların olmasını da vacib sayıb: ”Burada hüquqşünasdan çox psixoloqlara ehtiyac var, çünki söhbət barışığa nail olunmasından gedir. Yoxsa elə olmasın ki, məhkəmə icraçıları dönüb mediator olsunlar”.

**Parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov mediator üçün təcrübəli insanlara ehtiyac olduğunu qeyd edib:** ”Vəkillik institutu yaranandan sonra polisdən və digər yerlərdən qovulanlar vəkilliyə üz tutdular. Əgər hazırda ara düzəltmə kimi məsələlər varsa, bu, həmin insanlarla bağlıdır. Yeri gəlmişkən, özünə ailə qura bilməyənlər bu gün TV-lərdə ailə məsələlərinə münasibət bildirirlər. Bu insanlar kimdir ki, kimisə kiminləsə evləndirir, boşandırır? Bəzən hörmətli deputatlarımızı da elə verilişlərdə görürəm. Hər insanın ailə problemi ictimailəşdirilməmelidir. Biz bunun pis nəticəsini də görürük, ailə problemləri artır və insanlar telekanallara üz tutur”.

### “Pul olmasa, heç kim mediator olmaq istəməyəcək”

**Vitse-spiker Əli Hüseynli isə mediasiya sessiyasında iştirak üçün 50 manat ödənişin böyük olmadığını qeyd edib:** ”Pul olmasa, heç kim mediator olmaq istəməyəcək. Digər tərəfdən, sertifikat almış mediatorların içərisində hüquqşünaslardan sonra ikinci yerdə psixoloqlar gəlir. Həm də sertifikat almış mediatorların əksəriyyəti orta yaşlı insanlardır. Bizim qanun Türkiyə təcrübəsinə əsaslanır. Gələcəkdə isə baza qanuna yenidən qayıda bilərik”.

### “Məhkəmə proseslərində ciddi nöqsanlar baş verir”

**Millət vəkili Razi Nurullayev məhkəmə sistemində problemlərin olduğunu deyib.** O bildirib ki, məhkəmə proseslərində ciddi nöqsanlar baş verir: ”Mənim məhkəmə hakimi, prokuror dostlarım var. Amma seçicilərin müraciətlərindən görürük ki, müəyyən işlər görülsə də, məhkəmələr hələ də düzgün işləmir. Şəxsi maraqlar çərçivəsində qərarlar verilir. Əminəm ki, burada olan deputatların əksəriyyəti məhkəmələrlə bağlı narazıdırlar, amma açıq şəkildə demirlər. Kluarlarda hər biri açıq şəkildə bunu etiraf edirlər. Hər gün yüzlərlə videolu, səsli, yazılı şikayətlər göndərirlər. Kimisə bunu şəxsi maraqlar naminə edir ki, məndən istifadə etsin. Mən istifadə olunan adam deyiləm. Amma insanların hüquqları pozulanda mən də onları açıq formada deyirəm”. R.Nurullayev parlament tribunasında Baş Prokurora müraciət edərək onunla görüşmək istədiyini bəyan edib.

**İsmayıl Qocayev**

---

# Mina xəritələri çoxdan Kremlə verilib!

## “Bu, Rusiya və Ermənistanın əlində siyasi ticarət mövzusudur”



**Ermənistanda Nikol Paşinyanın iqtidarını yenidən bərpa etməsi Azərbaycanla münasibətlərin hansı müstəvidə davam edəcəyi ilə bağlı müxtəlif suallar yaradır.**

Bu münasibətlərin əsas komponentlərindən biri isə minalı ərazilərin xəritəsi ilə bağlıdır. Rəsmi İrəvan, nəhayət, ağlını başına yığacaq, yoxsa yenə də riyakarlıq edəcək?

**Tanınmış jurnalist, siyasi şərhçi Fuad Abbasov bu barədə “Şərq”ə danışıb:** ”Məsələ Rusiyanın nəzarəti altındadır. Sülhməramlıların ancaq ermənilərin yaşadıqları ərazilərdə minalar tapmaları təsadüfi deyil. Niyə? Çünki xəritə çoxdan Kremlə verilib. Amma bizim Moskvadan xəritəni tələb etmək hüququmuz yoxdur. Ona görə ki, minaları Rusiya yox, Ermənistan basdırıb”.

**F.Abbasovun fikrincə, rəsmi Bakı çox diqqətli olmalıdır:** ”Bu, Rusiya və Ermənistanın əlində siyasi ticarət mövzusudur. Ermənistanda hakimiyyətə kimin gəlməyindən asılı olmayaraq, şimal qonşumuz sözügedən məsələdən öz siyasi məqsədləri üçün yararlanmağa çalışacaq. Bu ”kozır” əvəzində İrəvan terrorçuların geri qaytarılması, Moskva isə Türkiyənin Qarabağdakı təsir gücünü azaltmaq niyyətindədir. Odur ki, sonuncu mina çıxarılanadək işimiz çətin olacaq”.

**Kənan**

---

# Azərbaycan ordusunun yaradılması tarixi hadisədir

## O vaxt Səməd bəy Mehmandarovun əmri ilə Şuşada əsgəri geyimlər istehsal edən fabrik yaradıldı



*Bu gün Azərbaycanda Milli Ordu günü kimi qeyd ediləcək. Biz hər il iyunun 26-da silahlı qüvvələrimizə dərin ehtiram hissi ilə "Sağ ol!" deyirik. Bu il isə daha əlamətdardır. Çünki otuz ildir həsrət qaldığımız Qarabağ, nəhayət, azad olundu, torpaq bütövlüyümüz təmin edildi.*

Düzdür, sonralar dəfələrlə komplektləşdirilsə də, müasirləşdirilsə də, Azərbaycan Milli Ordusunun əsası 1918-ci ildə qoyulub. Yəni Azərbaycan Xalq Cümhuriyyəti dövründə. **BDU-nun Jurnalistika fakültəsinin professoru, tarixçi-alim Nəsiman Yaqublu həmin tarixi hadisə barədə ”Şərq”ə danışıb: ”AXC yaradılandan sonra görülən ən mühüm işlərdən biri məhz milli ordunun yaradılması idi.**

Bu işdə Qafqaz İslam Ordusunun komandanı Nuru Paşanın xüsusi xidmətləri olub. O vaxt Nuru Paşa iyunun 4-də imzalanan Batum müqaviləsinə uyğun olaraq Bakıya dəvət edilmişdi. Hərbi nazir vəzifəsi Nuru Paşaya verildikdən sonra çox ciddi addımlar atıldı. Çünki o, peşəkar hərbçi idi.

Nəyi necə etmək gərəkdiyini yaxşı bilirdi. Verilən əmrə uyğun olaraq 1894-1897-ci il təvəllüdlülər orduya çağırıldı. Amma proses uğursuz keçdi. Çünki çar Rusiyası dövründə azərbaycanlılar hərbi xidmətə cəlb edilmirdilər.

Odur ki, Nuru Paşa sərt tədbirlər gördü. Gəncədə peşəkar kadrlar hazırlayan hərbi məktəb yaradıldı. Qafqaz İslam Ordusunun tərkibində Azərbaycan milli qüvvələrinin döyüşən ordusu formalaşdırıldı. Atılan addımlar cəmi 1-2 il sonra nəticə verdi. Bakı azad edildi və burada hərbi məktəb açıldı. Eyni zamanda, Qarabağda ciddi hərbi əməliyyatlar keçirildi”.

**N.Yaqublu, həmçinin milli ordumuzun formalaşmasında xidmətləri olan digər şəxsiyyətləri də xatırladı:** ”Ovaxtkı baş nazir Fətəli xan Xoyskinin də bu işlərdə mühüm töhfəsi olub. Çünki o, həm də hərbi nazir vəzifəsini icra edirdi. III hökumət kabinəsində Səməd bəy Mehmandarov hərbi nazir oldu.

Onun əmri ilə Şuşada əsgəri geyimlər istehsal edən fabrik yaradıldı. Baş qərargah rəisi, əslən polyak Süleyman bəy Sulkeviç də ordumuzun formalaşmasına töhfələr verib.

1919-cu ilin iyununda Xankəndidə də ilk hərbi parad keçirildi. Onu da deyim ki, milli ordumuza birinci şeiri Əhməd Cavad yazıb. Silahlı qüvvələrimizi tərənnüm edən ilk şairə isə Xədicə xanım idi. Fürsətdən istifadə edib Milli Ordu günü münasibətilə bütün xalqımızı təbrik edirəm.

Şübhəsiz ki, 44 günlük müharibədəki qələbəmizdə 1918-ci ildən formalaşan ordunun, ənənələrin müstəsna əhəmiyyəti var”.

**Kənan Novruzov**

# “Yalnız bir olarsaq, muradımıza yetişə bilərik”




*Millət vəkili mötəbər siyasi platformada qadınlara ünvanlı şüar səsləndirib*

**Milli Məclis deputatı Könül Nurullayeva 21 iyun tarixində dünyaca mötəbər siyasi platformalardan biri olan ”Qadın Siyasi Liderləri” Təşkilatının təşkilatçılığı ilə həyata keçirilən QSL 2021 Digital Sammitində iştirak etmişdir.**

Sözügedən forumda 100-ə yaxın aparıcı qadın siyasətçi, dövlət başçıları və beynəlxalq təşkilat rəhbərləri dinləyici və çıxışçı qismində yer alıb. Sammitdə Avropa Mərkəzi Bankının Prezidenti Christine Legarde, NATO-nun Baş Katibi Jens Stoltenberg, Fransa Prezidenti Emmanuel Makron, Avropa Komissiyasının Prezidenti Ursula Von Der Leyen, Xorvatiya Prezidenti Kolinda Grabar-Kitarovic, keçmiş Malta prezidenti Emeritus Marie Louise Coleiro Preca, Yaponiyanın Ədliyyə naziri Yoko Kamikava, İtaliya Nazirlər Şurasının Sədri Mario Draqi, İndoneziya Respublikasının Xarici işlər naziri Retno L.P. Marsudi, Dünya Sağlamlıq Təşkilatının Baş Direktoru Tedros Adanom Qebreisus, Avstraliyanın 27-ci Baş Naziri olan Julia Qillard, Panamanın Vitse-Prezident və Xarici işlər naziri İsabel Sen Malo kimi qonaqlar da fikir mübadiləsinə qoşulmuşdur.

Millət vəkili Azərbaycanı forumda qadın siyasətçiləri və liderlərinin post-pandemiya dönəmində yarada biləcəyi yeni reallıqlara köklənmiş ”milli bəyannamə” ilə təmsil edib.

K.Nurullayeva çıxışında bəyan edib ki, Azərbaycan dövləti müsəlman şərqində qadınlara bərabər seçki hüququnu təmin edən ilk ölkə olaraq, daim gender bərabərliyi və qadınların bərabərhüquqluluğunu təbliğ edib. Deputat dövlətimizin birinci vitse-prezident və parlament sədri kimi vəzifələrə qadınları təyin etməklə, eləcə də qərar qəbuledici orqanlarda, parlament daxilində qadınların iştirakını artırmaqla, milli qadın siyasi liderlərinin formalaşmasına böyük töhfə vermiş olduğunu da vurğulayıb.

K.Nurullayeva bəyannaməsində həmçinin ölkəmizdə qadınların gücləndirilmə mərkəzləri şəbəkəsinin Vətən müharibəsi zamanı dağıdılmış Tərtər, Bərdə və Ağcabədi kimi münaqişə bölgələrindən kənar ərazilərdə də genişləndiriləcəyinə dair aparılan müzakirələrə toxunub.

Sonda isə Milli Məclis deputatı bir qadın parlament üzvü kimi belə əhəmiyyətli bir mövzuda dünyaya fikir və təkliflərini çatdıra bilmək imkanını dəyərləndirərək, bütün forum dinləyici və çıxışçılarına üz tutub ”yalnız bir olarsaq, muradımıza yetişə bilərik” şüarını səsləndirib.

**Yeganə**

# Makron məktubunda yenə sərsəmlədi

## Fransa prezidenti Ermənistanla Azərbaycan arasında mümkün əlaqələrin qurulmasına qarşı çıxır



**”Fransa Prezidenti Emmanuel Makron Nikol Paşinyana təbrik məktubunda çox ciddi şəkildə Azərbaycanın ərazi bütövlüyünə qarşı mövqe ortaya qoyub”.**

**Bu fikirləri Makron-Paşinyan arasında olan məktublaşma barədə şərh verən politoloq Məhəmməd Əsədullazadə bildirib.** Siyasi şərhçi qeyd edib ki, Makron məktubunda həll edilmiş Qarabağ münaqişəsinin ”Ermənistanın ərazi bütövlüyü və suverenliyinə hörmət” şərtilə həllinə kömək etməyə də hazır olduğunu vurğulayıb: ”Göründüyü kimi, Ermənistanla Azərbaycan arasında mümkün əlaqələrin qurulmasına qarşı çıxır. Azərbaycanın ərazi bütövlüyünə qarşı gələrək, Qarabağın Ermənistanın ərazi bütövlüyü çərçivəsində həllinə çalışır. Bu məqsədlə Minsk qrupu çərçivəsində danışıqların bərpasını irəli sürür. Fransa Prezidenti E.Makronun irəli sürdüyü bu təklif, Ermənistanın maraqlarına zərbədir və bu N.Paşinyanın siyasətinə diametral ziddir. Təbii ki, Ermənistan belə bir siyasi çağırışa dəstək verərsə, Ermənistanın blokadada qalması qaçılmaz olar. Bu da N.Paşinyan üçün maraqlı deyil”.

M.Əsədullazadə vurğulayıb ki, E.Makronun məktubunda qeyd edilənlərlə bağlı Azərbaycan Minsk qrupu formatından Fransanın çıxarılmasını tələb etməlidir və ”belə bir ölkə orada qalacaqsa, danışıqlar aparmayacağam bəyanatı”nı verməlidir.

**Aynurə**

# Tural Gəncəliyev fransız dilində çıxış edib




“Afrika mənşəli insanlar polis vəhşiliyinə, irqçi zorakılığa, hətta istismara daha çox məruz qalırlar”

**Milli Məclisin AŞ PA-dakı nümayəndə heyətinin üzvü Tural Gəncəliyev Avropa Mühafizəkarlar qrupu adından ”Avropada Afrofobiya ilə mübarizə” mövzusunda hesabata dair fransız dilində çıxış edib. Deputat bildirib ki, bütün insanlar azad və bərabər hüquqlu olaraq doğulurlar:**

”Beynəlxalq İnsan Hüquqları Bəyannaməsində əksini tapan bu fikir İkinci Dünya müharibəsindən sonra Avropanın yenidən qurulmasının mərkəzi ideyası olub. Sözügedən fikirlər beynəlxalq insan hüquqları sisteminin əsasını təşkil edir. Afrika mənşəli insanlara qarşı irqçilik və ayrıseçkilik Avropada iş, təhsil və məhkəmə sistemi daxil olmaqla gündəlik həyatın bir çox aspektini əhatə edir. İrqi mənşəyindən asılı olmayaraq, hər bir Avropa vətəndaşının bərabərliyini təmin etmək üçün afrofobiyanı Afrika mənşəli insanları və qaradərili avropalıları xüsusi bir irqçilik forması kimi tanımaq və bu problemi aradan qaldırmaq çox vacibdir”.

Millət vəkili diqqəti Afrika mənşəli insanların problemlərinə yönəldərək qeyd edib ki, Avropada təxminən 15 milyon Afrika mənşəli insan yaşayır və bu, Avropadakı ən böyük marjinallaşmış icmalardan biridir:

”Afrika mənşəli insanlar müxtəlif qruplarda olmaqla, bir hissəsi mühacir, digərləri uzun müddət vətəndaşlıq tarixi olan və nəsillər boyu Avropada yaşamış insanların soyundan gələnlərdir.

Milliyyətindən və imiqrasiya statusundan asılı olmayaraq fiziki xüsusiyyətlərinə və ya dərisinin rənginə görə ayrı-seçkilik halları geniş yayılıb. Afrika əsilli insanlar əsrlər boyu istismara məruz qalması faktı aşkar olsa belə, bu məsələ bir çox hallarda inkar edilməkdədir. Afrika mənşəli insanlar da bir çox ölkədəki ümumi əhaliyə nisbətdə polis vəhşiliyinə, irqi profilləşdirilməyə və irqçi zorakılığa, hətta istismara daha çox məruz qalırlar”.

T.Gəncəliyev qeyd edib ki, məktəblərdə qaradərili tələbələr irqçi zorakılıq və yalançı təhsil materialları və tətbiqləri şəklində irqçiliklə qarşılaşırlar:

”Bu, qaradərililərin təhsil səviyyəsinə və həyat perspektivlərinə böyük təsir göstərə bilər. Ayrı-seçkiliyin digər formaları arasında qaradərili insanlara tibbi yardım ala bilməməsi, mənzil təminatı sahəsində ciddi ayrı-seçkilik və mediada stereotip görüntülər yer alır.

Təhsil, iş, mənzil və səhiyyə xidmətlərinə bərabərliyi təmin etmək üçün daha güclü bir siyasi iradə ortaya qoymalıyıq. Lakin dəyişiklik yalnız qanunvericilik yolu ilə baş vermir.

Təhsil səyləri çox vacibdir. Məktəb tədris proqramları Afrika mənşəli insanların tarixi və mədəni irsini və cəmiyyətlərimizin inkişafındakı töhfələrini daha yaxşı əks etdirməlidir”.

**Yeganə Bayramova**

**Şənlik mərasimlərinin keçirilməsinə icazələrin verilməsi üçün icaze.e-gov.az portalı bü gündən aktivləşdiriləcək.**

Bu barədə ”Şərq”ə Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən məlumat verilib.

Məlumatda xatırladılıb ki,



# Toylarla bağlı icazə portalı aktivləşdirildi

## Bu gündən toy adətlərimizə biri də əlavə olunur

Nazirlər Kabinetinin qərarı ilə ”Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə” Nazirlər Kabinetinin 2021-ci il 26 may tarixli 151 nömrəli Qərarına dəyişiklik edilib. Qərara əsasən müvafiq şərtlər daxilində şənlik mərasimlərinin keçirilməsinə icazə verilib.

Şənlik mərasimlərinin keçirilməsi üçün icazə Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Elektron Hökumətin İnkişafı Mərkəzi (EHİM) tərəfindən idarə olunan icaze.e-gov.az portalından əldə olunmalıdır.

Şənlik mərasimi keçirilən məkanın və ya müəssisənin sahibi həmin obyekt daxilində fəaliyyət göstərən tədbir zalları, onların tutumu və çalışan işçi heyət (müvəqqəti işə cəlb edilmiş işçilər daxil olmaqla) barədə məlumatı portala daxil etməlidir. Məkan sahibi tərəfindən əməkdaşlar haqqında məlumatlar portala daxil edildikdən sonra qurumda COVID-19 pasportu olan əməkdaşların faiz göstəriciləri haqqında məlumat əsas səhifədə əks olunacaq. 2021-ci il iyulun 1-dən etibarən COVID-19 pasportu tələb olunan iş və xidmət sahələri işçilərinin azı 80 faizinin COVID-19-a qarşı birinci doza peyvənd olunması və ya COVID-19-a qarşı immunitet sertifikatına malik olması, 2021-ci il 1 avqust tarixindən etibarən isə COVID-19 pasportunun olması tələb olunur.

Həmçinin şənlik mərasiminin keçirilməsi tarixinə ən azı 5 gün qalmış mərasimin keçirilmə tarixi, başlama və bitmə vaxtı (saat 00:00-dan gec olmamaqla), qonaq sayı haqqında məlumatlar icaze.e-gov.az portalına əlavə olunmalıdır. Bu zaman, həmçinin məkan sahibi ilə toy sahibi arasında ”Şənlik mərasimlərində koronavirus infeksiyasının (COVID-19) idarə olunması ilə bağlı metodiki göstərişlər”də müəyyən edilmiş tələblərə əməl edilməsinə dair iltizam sənədi də doldurularaq portala yüklənilməlidir. Tədbirin başlamasına 5 gün qalmış tədbirlə bağlı heç bir düzəliş edilə bilməz.

icaze.e-gov.az portalı ilə bağlı yaranan çətinliklərlə əlaqədar 9108 ”Çağrı” Mərkəzinə müraciət edilə bilər.

**Aynurə**

# Türkiyəyə biletlər çox bahadır

## Qiymətləri tənzimləmək üçün Qənirə Paşayeva AZAL-a çağırış edib



Dünən Milli Məclisin növbədənkənar sessiyası çərçivəsində növbəti iclası keçirilib. İclasın gündəliyində 12 məsələ olub. Gündəliklə yanaşı, deputatlar cari məsələlərlə bağlı da çıxış edərək, seçicilərin şikayətlərini gündəmə gətiriblər.

**“Bütün daxil olan qanun layihələrində rüsumlar, vergilər artırılır”**

**Millət vəkili Qüdrət Həsənquliyev bildirib ki, bütün daxil olan qanun layihələrində rüsumlar, vergilər artırılır:** ”Ortaya fərqli bir mənzərə çıxıb. Sanki hansısa şəxs haqqında ”ölüm hökmü” çıxarılıb, ancaq hakim həmin şəxsə deyir ki, əslində sənin üçün yaxşı olacaq. Öləndən sonra cənnətə gedəcəksən. Bunu ona görə deyirəm ki, onsuz da vətəndaş vergi ödəyir”. ”Əlilliyi olan şəxslərin hüquqları haqqında” qanun layihələrinin arayışında 6 ay ərzində şəxsin əlilliyi müəyyən edildikdə, ötürülmüş müddətin nəzərə alınması təklif olunur. Ancaq qanun layihəsində bu aydın ifadə olunmayıb”. Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev isə iradla qismən razılaşıb: ”Qanun layihələrinin birində bu, aydın ifadə olunub”.

**“Aviabiletlərin qiymətinə yenidən baxılsın...”**

**Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva bildirib ki, Türkiyədən Azərbaycana gəlmək istəyən xeyli insan var:** ”Çoxlu sayda müraciətlər alırıq. Türkiyədə insanlar Azərbaycana aviabiletlərin qiymətinin bahalığından şikayətlənirlər. Azərbaycandan da Türkiyəyə biletlər bahadır. Mən buradan AZAL-a çağırış edirəm ki, bu biletlərin qiymətinə baxılsın”. Deputat deyib ki, millət vəkili ifadəsi ictimai sifarişə çevrilib: ”Bu baxımdan ”Milli Məclis deputatının statusu haqqında” qanuna dəyişiklik edilməsinə ehtiyac var”.

**“Ağıllı sayğac” dövlətin hesabına dəyişdirilməlidir”**

**Deputat Vahid Əhmədov ”Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” qanun layihəsinin effektliyindən söz açıb.** Millət vəkili vurğulayıb ki, bu qanun gələn il qüvvəyə minəcək: ”Qanunda nəzərdə tutulan ”ağıllı sayğac”lar hazırkı sayğaclardan nə ilə fərqlənir və biz bütün sayğacları ağıllı sayğaclarla əvəzləyəcəyikmi? Əgər sayğaclar ”ağıllı sayğac”larla əvəzlənəcəksə, vətəndaşın deyil, dövlətin hesabına dəyişdirilməlidir. Ümumiyyətlə, sayğacların dəyişdirilməsi üçün nə qədər vəsaitin lazım olduğu hesablanıbmı?”.

**“Günəş panelləri elə yerdə quraşdırılıb ki, toz basıb, oradan nə enerji alınacaq?”**

**Millət vəkili Fazil Mustafa isə sayğacların dəyişdirilməsi zamanı əsas məsələnin şəffaflıq, dövlət vəsaitinin səmərəli istifadə olduğunu vurğulayıb:** ”İstehlakçı nə qədər enerji istəyəcəksə, o qədər enerji ilə də təmin etməlisən. Yoxsa qanunda bina üçün hansısa həddin müəyyənləşdirilməsinə nə ehtiyac var? Qobustan yolunda külək enerjisi üçün guya avadanlıqlar quraşdırılıb, altındakı generatorlar söndürülüb. Yaxud Günəş panelləri elə yerdə quraşdırılıb ki, onları toz basıb, oradan nə enerji alınacaq? Əsas məsələ odur ki, istehlakçıya keyfiyyətli xidmət göstərilsin, vəsaitlər də mənimsənilməsin”. F.Mustafa əlavə edib ki, fərdi olaraq Günəş panelləri quraşdırılsın: ”Digər alternativ bərpa olunan enerji mənbələri yaradaraq istifadə edə bilsinlər deyə rayonlarda insanlara kreditlər vermək lazımdır.

**“Qanun layihələrində tez-tez Avropa standartlarının adını çəkirik”**

**Parlamentin İqtisadi siyasət komitəsinin üzvü Vüqar Bayramov nəzərə çatdırıb ki, qanun layihəsində məcburi enerji auditinin 3 ildən bir aparılması nəzərdə tutulub:** ”Bu müddət azaldılmalıdır. Layihədə ”ağıllı sayğaclar”ın zədələndiyi və dəyişdirilməsi zərurəti yarandığı halda bunun təchizatçı qurum tərəfindən təmin olunması əksini tapmalıdır”.

Deputat Aydın Hüseynov ”ağıllı sayğac”ların dəyişdirilməsinin istehlakçı və ya təchizatçı deyil, sərbəst bir qurum tərəfindən həyata keçirilməsini təklif edib: ”Qanun layihələrində tez-tez Avropa standartlarının adını çəkirik. Ancaq dünyada elə standartlar var ki, Avropadan da yaxşıdır. Ona görə də dünya təcrübəsini, standartlarını qeyd etsək yaxşıdır”.

**“Tovuzun elə kəndləri var ki, hələ 30 faizində qaz yoxdur”**

**Parlamentin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva vətəndaşların əksəriyyətinin enerji resursundan səmərəli istifadə etdiyini söyləyib:** ”Ancaq Tovuzun elə kəndləri var ki, hələ də 70 faizində qaz var, 30 faizində yoxdur. Hər il bu problemi qaldırırıq, deyirlər ki, növbəti ilə həll olunacaq. Vətəndaş da qışda evi qızdırmaq üçün elektrik enerjisindən istifadə edir, elektrik xətləri isə bu yükə hesablanmayıb. Öncə bu problemi həll etməliyik. Qovlarda 9 ailəyə hələ də elektrik verə bilmirik, elektrik xətləri uzaqdadır, vətəndaşa elektrik enerjisinin evində verilməsi təmin olunmalıdır. Mənə müvafiq qurumlardan deyirlər ki, 500 metr məsafəyə elektrik xətti çəkməliyik? Fürsətdən istifadə edərək Zəyəmçay üzərində bir su anbarının da tikilməsini təklif edirəm. Çünki Zəyəmçayda yayda su olmur, suvarmada problem yaranır. Ümumiyyətlə, bütün işlər koordinasiya olunmalıdır”.

**“Deputat” sözü ”millət vəkili” sözü ilə əvəz edilməlidir”**

**Millət vəkili Elman Nəsirov deyib ki, ”deputat” sözü ”millət vəkili” sözü ilə əvəz edilməlidir:** ”Çünki biz millətin vəkiliyik. Milli Məclis deputatının statusuna dəyişiklik edilməlidir. Oradan ”deputat” sözü çıxarılıb, ”millət vəkili” sözü əlavə edilməlidir. Deputat sözü alınma sözdür”.

**İsmayıl Qocayev**

# “YAŞAT” Fonduna hər kəs 10 manat ianə etsin!

## “Adil müəllimin səsinə 1 milyon adam səs versə, bu, 10 milyon manatın toplanması deməkdir”

**”Biz xalq olaraq tarixi qələbəni yaşadanları heç zaman unutmayacağıq”. Bunu Milli Məclisin sədr müavini Adil Əliyev parlamentin dünən keçirilən iclasında deyib. Onun sözlərinə görə, qələbəni yaşadanlar hər zaman Prezident İlham Əliyevin diqqət mərkəzindədir:**

”Torpaqlarımızın düşməndən azad edilməsi aparılan uğurlu islahatların nəticəsidir. Hər kəsdən xahiş edirəm ki, 10 manat olmaqla ”YAŞAT” Fonduna ianə edək və bununla da qəhrəmanlarımıza, onların ailələrinə dəstək olaq”.




**Təkliflə bağlı Jurnalist Araşdırmaları Mərkəzinin rəhbəri, ”Yenisabah.az” saytının baş redaktoru Seymur Verdizadə ”Şərq”ə fikirlərini bölüşüb.** O, ilk olaraq qeyd edib ki, ”YAŞAT” Fonduna ianə etmək hər bir azərbaycanlının borcudur: ”Vətəndaş məsuliyyətinin fərqində olan insanlar mütəmadi bu Fondun hesabına pul köçürürlər. Təbii ki, məbləğin az və ya çox olması bir o qədər də böyük əhəmiyyət kəsb etmir. Vacib olan şəhid ailələrini, qayğıya ehtiyacı olan qazilərimizi unutmamaqdır. Atalar sözündə deyildiyi kimi, ”Dama-dama göl olar”. Adil müəllimin səsinə 1 milyon adam səs versə, bu, 10 milyon manatın toplanması deməkdir. Bu məbləğlə də minlərlə şəhid ailəsinin, qazinin problemini həll etmək olar”.

**S.Verdizadə maraqlı bir təklif də irəli sürüb:** ”YAŞAT” Fonduna sıravi vətəndaşlar 10, deputatlar isə 100-200 manat ianə etsin. Və bir də məmurlardan xahiş edirəm ki, xalqdan oğurladıqları pulların cəmi bir faizini ”YAŞAT” Fondunun hesabına köçürsünlər. Yığılan məbləğlə müharibənin bütün yaralarını sağaltmaq mümkündür”.

**Aynurə Pənahqızı**




# Daha 65 nəfər koronavirusa yoluxub

## 2 nəfər ölüb, 89 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 65 yeni yoluxma faktı qeydə alınıb, 89 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, 2 nəfər ölüb.

İndiyədək ölkədə ümumilikdə 335 741 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 329 959 nəfər müalicə olunaraq sağalıb, 4 967 nəfər vəfat edib, aktiv xəstə sayı 815 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 7 728, ötən müddət ərzində isə ümumilikdə 3 713 779 test aparılıb.*

# “Şair intihar edirsə oxucu ondan qabaq intihar edəcək”

## Yafəs Türksəs: “Şairi Ramiz Rövşən olan müxalifət inqilab edə bilməz”



Yafəs Türksəs yeni çapdan çıxmış şeirlər kitabını gətirmişdi redaksiyamıza. "Əllərimin sualı". Doğrusu, şeir oxumağa heç həvəsli deyiləm. Söhbət etdik, Yafəs bəylə. Özü də bildi ki, yaradıcılığına bələd deyiləm. İncimədi. Yəqin belə düşünüb ki, "bu xanım da klassikadan kənara çıxa bilmir. Yeni düşüncəni qəbul etmir". Bu qənaətə onunla həmsöhbət olandan sonra gəlmişəm. Sonda gəldiyim nəticəni əvvəldə yazıram. Bu da məndən "yenilik" olsun, yenilikçi, avanqard şairimiz Yafəs Türksəsə. Milli hərəkatçıların yaxşı tanıdığı Yafəs Türksəs haqqında qısaca bunu xatırladıram ki, hazırda Milli Düşüncə Mərkəzinin sədridir. Dünya Azərbaycanlıları Konqresinin MDB üzrə məsləhətçisidir. Söhbətə belə başladıq:

**- Yafəs bəy, hazırda sizi narahat edən, fikrinizi daha çox məşğul edən nələrdir?**

- Baxıram ki, insanların əksəriyyəti klassik düşünür. Sovet düşüncəsində qəlıblar. Yeni fikrə az yer verirlər. Yeni düşüncəyə köklənən heç 200 adam yoxdur. Yeni düşüncələrə şübhə ilə yanaşırlar. Hamı standart düşünür. Fərqli fikirlərə dözüm yoxdu. Ədəbiyyatda şairlərimizin çoxu klassik yazır. Modernizmdən qaçırlar. Avanqard düşüncədən qaçırlar. Cəsarətdən qaçırlar.

**- Yeni fikir deyəndə nəyi nəzərdə tutursunuz?**

- Məsələn, mənim düşüncəmə görə, Yazıçılar Birliyi sovetdənqalma bir qurumdu. Olmamalıdı. Bir neçə qurum olmalıdır. Burda da bir neçə yanaşma var. Bir yanaşma budur ki, Yazıçılar Birliyi təkmilləşsin. Yeniləşsin. Dövrə uyğunlaşsın. Bir yanaşma da budur ki, məsələn, mənim də yanaşmam belədir ki, bir neçə birlik olsun, "PenKlub" kimi. Modernistlər bir yerə yığışsın, klassiklər bir yerə yığışsın. Dövlət də dəstək versin, yaxud yarış keçirsin, hansında daha çox şair, yazıçı ortaya çıxdı, dünya səviyyəsində tanındı, onlara daha çox vəsait ayrılsın, mükafatlar şəklində verilsin. AYB-nin 2000 üzvü varsa, bunun 200-ü normal yazıçı, şairdi.

**- Təkcə bumu?**

- Siyasi düşüncədə də. Fərqli düşünənlərə düşmən kimi baxırlar. Mədəni sahədə də elədir. Yeni fikri yaxına buraxmırlar. Televiziyalarda da mühafizəkar düşüncəliləri danışdırırlar. İncəsənətdə də. Hazırda bir dənə də normal mahnı mətni yoxdur. Hamısı toylara hesablanan mahnılardı. Müğənnilər televiziyalara maddi köməklik göstərir, onlar da kim gəldi efirə buraxırlar. Belə olmalı deyil. Baxırsan, Manafdı, Şəbnəm Tovuzludu, Mənzurədi... Çoxdular e. Yadıma düşənləri, söz gəlişi deyirəm. Bu, ciddi incəsənət, ciddi yaradıcılıq deyil axı.

**- Bu dəqiqə fikrimə gəlmir, şairlərimizin adları... tutalım, Baba Vəziroğlu ciddi şeir yazmır, normal mahnı mətni yazmır?**

- Sizinlə razıyam. Baba Vəziroğlu həddindən çox mahnı mətni yazıb, konveyer kimi. Amma Baba Vəziroğlunun ciddi şeirləri var. 5-6 normal mahnı mətni var. Amma hamı onun şeirlərinə yazılmış mahnıları oxumur ki. Müğənni çıxır efirə, deyir, şeir də özümündü, musiqi də, özüm də ifa edirəm. Belədisə, getsin çadır toyunda oxusun da. Daha bunu ictimailəşdirmək olmaz. Sonra musiqili meyxana. Musiqili meyxana meyxana deyil, şeirdi. Özü də çox zəif şeirlərdi. Musiqisi də bir notun üstündədi - taq-qa-taq, taq-qa-taq... Musiqimizi də məhv edirlər, şeirimizi də.

**- Yafəs bəy, mən sosial şəbəkədə aktiv deyiləm...**

- Mən çox aktivəm.

**- Aktivsinizsə, şeirlərini sosial şəbəkə üzərindən paylaşan şairlərimiz var. Demək istədiyim bu idi ki, passiv olan mən hətta o paylaşımları görürəm və çox bəyənirəm. Məsələn, Ayaz Arabaçı şeirlərini paylaşır...**

- Ayaz Arabaçı yaxşıdı. O da klassik üslubda yazır, pis yazmır.

**- O da klassik üslubdadı?**

- Ənənəvidi...

**- Elçin Mirzəbəyli. Elçin müəllimin də gözəl şeirləri var. Feysbukda oxumuşam...**

- Onunki də ənənəvi şeirlərdi. Yeni bir şey yoxdu.

**- Yenilikçi şairlərimiz yoxdu?**

- Var. Amma dediyiniz adamlar deyil.

**- Kimlərdi?**

- Aqşin Yeniseydi, Aqşin Evrendi, Eminquey Akifdi.... Cəlil Cavanşir, Rasim Qaraca... Sevinc Elsevərdi, Murad Köhnəqaladı, mənəm... Bunlar sərbəst şeirlər, modern şeirlər yazır. Qismət Rüstəmovdu... Onların da bir qismində texnika moderndi, düşüncə isə ənənəvidi.

**- Demək istəyirsiz, üslub dəyişib, məzmun köhnədi?**

- Hə də... Mahir Mehdi, Qismət Rüstəmov modern şeirlər yazırlar. Amma texnika moderndi, düşüncə yox. Şəhriyar del Gerani modern üslubda yazır, modern ifadələr işlədir, amma görürsən ki, Vaqif Bayatlını yamsılayır.

**- Bu şeirləri oxuyanda kimin kimi yamsıladığını anlayırsınız?**

- Mən Azərbaycanda 3-4 yaxşı şeir oxucusundan biriyəm. Güclü şeir oxucusuyam. Ramiz Rövşənin şeirlərini oxuyanda çoxunu bəyənmirəm.

**- Hətta...**

- Çünki çox ənənəvidi. Dilin danışıq qatında yazır. Vaqif Bayatlını bəyənirəm, çünki dilin yazılı qatına yaxındır. Vaqif Səmədoğlunu bəyənirəm. Mən şeirin üst zövqlü oxucusuyam.

**- Danışıq qatı deyirsiniz, yazılı qatı deyirsiniz. Fərq nədi?**

- Bunu mən kəşf eləmişəm. Danışıq qatı belədi ki, şeiri oxuyanda görürsən ki, orda yazılanı hansısa bir formada əmin, dayın, xalan, bibin deyib də. Ona görə güclü poetik rezonans doğurmur. Amma şeiri dilin yazılı qatında yazırsansa, zəif də olsa, rezonans doğurur. Məsələn, Vaqif Bayatlı deyir ki, "bahar ağaclardan çəkilən kimi çəkildi başımdan gənclik sevdası... Yaxud Vaqif Səmədoğlu yazır ki, "bir axşam taksidən düşdük payıza... Payıza düşmək xalq arasında deyilməyib axı. Maraqlı gəlir adama. Ramiz Rövşən isə deyir ki, qardaşımdan, bacımdan küsüb gedirəm... Bu deyilib də, min dəfə deyilib. Amma şeir gözəldi. *(R.Rövşənin "Mən küsüb gedirəm... Qoy hamı qalsın, Mən küsüb gedirəm bu yer üzündən. Oğulam-qoy dərdim anama qalsın, Atayam-qoy balam küssün özündən..." şeirini nəzərdə tutur - M.R.)* Bilmirəm, fikrim çatır sizə?

**- Çatır, çatır... Sizin bu fikirləriniz haqqında danışdığınız şairlərə məlumdu? Necə reaksiya verirlər, maraqlıdır...**

- Çatdırırlar da. Ramiz Rövşən 90-cı illərdən sonra şeir yazmayıb. (?! - M.R.) Öz dövrünə görə yeni bir mərhələ açan şairdi. Bəxti onda gətirdi ki, boz sovet poeziyasından sonra odu. Vaqif Bayatlıdı, çiçək kimi göründülər. Sovet şeirinin boz səhralığında göründülər, onların uğuru bunda oldu. Şansları gətirdi ki, o bozluğun içində fərqləndilər. Sovet vaxtı poeziya bomboz idi də. Ən yaxşılarını götürək, Musa Yaqubdu, Nəriman Həsənzadədi, Məmməd İsmayıldı. Hamısı bir-birinə oxşayır da onların şeirləri. Onlar da bu bozluqda parıldadılar. Amma sonra gənclik gəldi, onlardan daha yaxşı yazdılar. Məsələn, Aqşin Evren, Aqşin Yeniseylə onlar bacara bilməzdilər. Yazsalar da, onların kölgəsində qaldılar. Düşüncə etibarilə köhnədilər e... Məsələn, mənim düşüncəmə görə, müasir şair şeirində bir ümid yeri qoymalıdır, bir etiraz qoymalıdır, 1 faiz, 2 faiz. Ramiz Rövşənin yaradıcılığı təslimçilikdi - "qardaşımdan küsüb gedirəm..."

**- *(Etiraz etmək istəyirəm)* Niyə? Ramiz Rövşənin...**

- *(Sözümü kəsir)* Şairi Ramiz Rövşən olan müxalifət inqilab edə bilməz axı! Şairi Yafəs Türksəs olan müxalifət inqilab edər.

**- Niyə olmadınız bəs?**

- Yaxın durmadılar...

**- Niyə?**

-İmic məsələsi var da. Deyirlər kasıb oğlandı. Ramiz Rövşən vaxtında imic qazanıb... Amma mənim elə şeirlərim var, Ramiz Rövşən yaza bilməz, Ramiz Rövşənin də elə şeirləri var, mən yaza bilmərəm. Amma mən onların gözündə Ramiz bəydən aşağıyam. Çünki o imici qazanmamışam.

**- Əsas budur ki, özünüzə qiymət verə bilirsiniz.**

- Sözsüz. Mənim elə şeirlərim var ki, Vaqif Bayatlı yaza bilməz, Rüstəm Behrudi yaza bilməz. Amma geniş kütlə bilmir, elita bilmir. Nə təhər deyim, fikrimi çatdırım?.. O dərəcədə özümü reklam eləməmişəm. Haqqımda yazmayıblar. Mənim haqqımda Nizami Cəfərov, Əsəd Cahangir, bir də Vaqif hərəsi 3-5 kəlmə yazıb. Geniş təbliğ olunmamışam. Nüsrət Kəsəmənlini hamı tanıyır. Çünki reklam olunurdu. Halbuki, ondan daha güclü şairlərimiz var.



> *“Mentalitet belə bir şeydir ki, onunla sivil xalqlar yaşamır. Onu dəyişdirir, müasirliyə uyğunlaşdırırlar”*

**- Nüsrət Kəsəmənlinin şeirlərinə nə qədər mahnı bəstələnib, mahnılar da onu tanıtdırırdı.**

- Sizinlə razılaşmayacam. Sovet vaxtı bir televiziya vardı. Şairlər çıxırdı televiziyaya. Hamı onları tanıyırdı. Sonra televiziyalar çoxaldı. Bu dəqiqə kim baxır televiziyaya?

**- Sözümü kəsdiniz bayaq, deyəcəkdim ki, Ramiz bəyin məşhur şeiri var: "Təpədən dırnağa hirs içindəyəm... Daş olub lap ulu Füzulinin də, Yanında durmağa yoxdu həvəsim. Mən sənin yanında dururam, Sənin... küçənin tinində dilənən qarı. Başından var-dövlət yağan ölkənin, Bəxtəvər günündə dilənən qarı..." Başdan-ayağa etiraz, üsyandı bu şeir...**

- Etiraz var... Ümumiyyətlə, şeir yaradıcılığına bir şeirdən çıxış edərək baxmaq olmaz. Ramiz Rövşənin zəmanəyə etirazları var. Amma mübarizlik yoxdur. Bir var, deyəsən durum səni döyüm, bir də var sadəcə pisləyirsən, etiraz edirsən, amma hərəkət etmirsən.

**- Biz elə bayaqdan Ramiz Rövşəndən danışırıq. Amma deyirsiniz ki, bəyənmirəm.**

- Yox, elə deyil. Klassiklərin rəhbəri odur da. Amma pessimistdir. Cavanlarda da var, pessimizm. Şair intihar edirsə, oxucu ondan qabaq intihar edəcək. Amma Vaqif Bayatlıda oxucunu həyata bağlamaq var. Vaqifin şeirlərində elə sıçrayışlı misralar var ki, Füzulidən sonra ən yüksək sıçrayışlı misralar Vaqif Bayatlıdadı. Ramiz Rövşəndə də var.

**- Sizdə də var?**

- Nə bilim, oxuyanda görərsiniz... Mən əvvəllər ənənəvi yazırdım...

**- ...Özünüzün sıçrayışlı bir şeirinizi misal çəkin, mən gərək şeirlərinizi oxuyam, ona da vaxt yoxdu. Ədəbiyyatşünas da deyiləm... Bir nümunə gətirin.**

- Qoy fikrimi deyim də. Mən ədəbiyyata bir az gec gəlmişəm. Ədəbiyyata gələndə mən də ənənəvi şeirlər yazmışam. Sonra yazı tərzim, düşüncələrim dəyişib, bunda da AYO-çuların böyük rolu olub. Baxmayaraq ki, mən yaşca onlardan böyüyəm, amma onları özümə müəllim hesab edirəm. Məsələn, mənim oğlum Şəhriyara şeirim var. Bir sevgi ... şeirlərin hamısı güclü olmur. Şeirin içində sıçrayışlı misralar olur. Məsələn, mən deyirəm, "nöqtəyə nə var, göz yaşı ilə də qoymaq olar". Bu, sıçrayışlı misradı.

**- İndi bu, tapıntıdı?**

- Tapıntıdı... Yəni qıza deyirəm, sənə şeir yazmışam, nöqtəsi qoyulmayıb. Nöqtəni göz yaşı ilə də qoymaq olar... Belə misralar bütün şairlərdə var. Vaqif Bayatlıda daha yüksəkdi.

**- Yafəs bəy, sovet illərində yazmış şairlərimizin yaradıcılığında sizi cəlb edən heç nə yoxdu? Məmməd İsmayıl, Məmməd Aslan, Nəbi Xəzri...**

- Mən deyim. Oxucu qat-qatdı. Mən onları gəncliyimdə sevə-sevə oxumuşam. Sonrakı məndə modern ... Aqşin Yeniseyi, Qismət Rüstəmovu oxuyandan sonra əvvəlkilərin şeirləri mənə bəsit göründü. Orta statistik oxucu üçün onlar yaxşı şeirlərdi. Məmməd Araz, Nəriman Həsənzadə...

**- Bəxtiyar Vahabzadə...**

- Bəxtiyar Vahabzadə quru yazıb. Zəif şairdi. Amma Zəlimxan Yaqub təbli şair idi. Onda da zəiflik vardı, amma təbli idi. Sıçrayışlı misraları yoxdur. Musa Yaqubun "əlimi əlinə öyrətmə belə..." şeiri çox duyğuludu. Orta səviyyədən bir az yuxarıdı. Orta səviyyədən keçmir. Mənim estetikamda. Sovet dövrünün ən yüksək şeiri budu: "mən də dərsdən qaçardım, sən dərsə gəlməyəndə..."

**- Müasir poeziyamızdan gözləntiniz nədi?**

- Ümumiyyətlə, Azərbaycan poeziyası modernizm mərhələsini keçməyib, formalaşmayıb. Bizim ən yaxşı şairlərimiz Ramiz Rövşən, Vaqif Bayatlıdı. Onlar da modernizmə qədərki dövrün şairləridi. Modernizm Rasim Qaracadan başladı, Həmid Herisçi də modernistdi. Onların ardınca 5-6 nəfər gəldi, sonra da qaçıb getdilər, yenə köhnələrə oxşadılar. Yenilik bunlara çatmadı. Ədəbi tənqidçilərimiz, ədəbi professorlarımız da bizim tərəfimizdə olmadılar. Neytral qaldılar. Susdular. Gəncliyi modernizmə kökləyə bilmədilər. Sərbəst şeirə kökləyə bilmədilər. İstəyirəm ədəbiyyatımız modernizmə keçsin, yeni düşüncə, yeni texnika ortaya qoysun. Bizim poeziyamız necədi? Gəncliyində bir qızı sevir. Ömrünün sonuna kimi ona şeir yazır. Elə bilirlər, insan ömründə bir dəfə sevə bilər. Elə deyil axı. Bizim şairlər sevgi axtarışı da aparmır. Sevgidə uduzmusan, keç o birisinə. Şair unutmağın da yollarını öyrətməlidir insanlara, mübarizənin yollarını, yaşamağın yollarını da. Yoxsa ki intihar təbliğ edir bizim şairlər. Olmaz axı. Şair mütəfəkkir olmalıdır. Yeni fikir, yeni düşüncə qoymalıdır ortaya. Yoxsa ki gül belə gəldi, çiçək belə getdi...

(Davamı səh.9)

## "Şair intihar edirsə oxucu ondan qabaq intihar edəcək"

### Yafəs Türksəs: "Şairi Ramiz Rövşən olan müxalifət inqilab edə bilməz"



*(Əvvəli səh:9-da)*

**- Tutalım, poeziyamız modernləşdi, bunun cəmiyyətə nə xeyri olacaq?**

- Çox gözəl sual verdiniz. İzah edim. Bütün fikirlər ədəbiyyatdan gəlir fəlsəfəyə, fəlsəfədən keçir siyasətə, siyasətdən cəmiyyətə. Fikirlərin cəmiyyətdə tətbiqi baş verir. Cəmiyyət bu halda inkişaf edir. Bizdə isə belə deyil. Həmin köhnə fikirlər, köhnə təfəkkür. Cəmiyyət də geri qalır, inkişaf etmir. Müasirləşmir. Məsələn, bizim ölkədə hələ də nişan mərasimi ilə toyu dəyişik salırlar. Nişan mərasimi edir, 250 nəfər dəvət edir. 30-40 nəfər dəvət elə, kiçik bir məclis olsun, qurtardı, getdi. Türkiyədə necədi, qonaqlar gəlir, meyvə şirəsi, şirniyyatdan dadır, evlənənləri təbrik edir, çıxıb gedir. Bizdə amma stola 50 cür yemək düzürlər. Gələn də məcburdu 100 manat nəmər salsın. 250 manat maaş alan adam onun 100-nü toya salsın, bəs sonra necə dolansın? Düz gəlmir axı, ay bacım... "Space" telekanalında Elçin Əlibəylinin verilişində toylar müzakirə edilirdi, əməkdar artist toylara tərəf çıxdı, soruşdum, nə qədər maaş alırsan, dedi, 250 manat. Dedim, bəs niyə toyları tərifləyirsən? Deyir, xalqın adət-ənənəsidi də. Bizimkilərin düşüncəsi budu. Mən şahid olmuşam ki, aktyorlar gedib idarə müdirlərindən pul istəyiblər ki, toya getməyə pulum yoxdur.

**- Kim?**

- Allah rəhmət eləsin, məsələn, Arif Quliyev.

**- Hamı bilirdi ki, rəhmətlik imkansızdı.**

-Tək o deyil e. Çox görmüşəm, belə aktyorları, axşam toya gedəsidi, pulu yoxdu. Amma efirdə böyük-böyük danışır ki, toylar yaxşıdı. Toy yaxşıdı, varlılar üçün. Kasıbın nəyinə lazımdı 500 nəfərlik toy mərasimi. Gedir şadlıq sarayına yer tutur, sonra da pulunu ödəyə bilmir, gəlinin qızılını soyub buraxırlar.

**- Bizdə belə hallar olur?**

- Oo... nə danışırsız?! O qədər... Qaraçuxurda dostumun şadlıq sarayı var, şəxsən görmüşəm ki, gəlinin qızıllarını alıb pul əvəzinə, üzünə tüpürmüşəm ki, ə bu da kişilikdi? Deyib, neyniyim bəs? Mən də borc almışam, mən də borcumu bağlamalıyam. Bunu misal olaraq çəkdim. İstər ədəbiyyatda, istər məişətimizdə yeni fikrə ehtiyac var, ay bacım!

**- Yeni fikir deyirsiniz. Amma bu da var ki, yenilik gələndə də milli adət-ənənələrimizin sıradan çıxmaq, itirilmək təhlükəsi yaranır, yad elementlər gəlir məişətimizə, həyatımıza.**

- Qəşəng sual verdin. Adət-ənənədən imtina etmək də olmur. Amma yaxşı olmayan, insanlara çətinlik yaradan adət-ənənəni dəyişmək lazımdır. Məsələn, elçiliyə vacib deyil ki, kəndin bütün ağsaqqallarını yığıb aparasan. Elçiliyə cavan bir dostunu da götürüb apara bilərsən. Adət-ənənəni tapdalamaq yox, yanından ötüb keçmək olar. Şəraitə uyğun davranmaq lazımdır. Yeri gəldikdə imtina etmək. Mentalitet belə bir şeydir ki, onunla sivil xalqlar yaşamır. Onu dəyişdirir, müasirliyə uyğunlaşdırırlar. Vacib deyil ki, 1000 il əvvəlki adət-ənənələrin hamısı qalsın. Adət-ənənə kitablarda yazılıb, qalır. Özü də bizdə kasıb nə vaxt toy eləyib? Toyu edirdi bəy, xan. Kasıbın birinə yazığı gələndə ona da toy çaldırırdı.

**- Yafəs bəy, niyə etmirdilər? Əzim Əzimzadənin karikaturaları var: Varlı toyu, kasıb toyu. Hər kəs imkanına görə edirdi.**

- Ay bacım, orta əsrlərdə ayağında çarıq kasıb toy eləyib? Kasıblar sovet vaxtı toy eləməyə başladı. Sovetlər hamını "bərabərləşdirmişdi", ona görə. "Arşın mal alan"a baxın da. Faytonun arxasına minir qulluqçular.

**- Onlar oynayırlar toyda.**

- Tacir Əsgərin toyunda oynayırlar da. Öz toyları deyil ki! Hər şeydə beledi ey... Xanımlar var, kiloqramla qızıl taxır boynuna-boğazına. Sənin biliyin, etikan, estetikan yoxdursa, qızılın heç bir qiyməti yoxdur. Acun İlıcalını tanıyırsınız da? Görürsüz, bir qara "mayka" geyinir. Bir də cins şalvar. Amma milyonları var. Bizdə isə kasıb aparır maaşını verir bahalı telefona, qoyur cibinə. Yəni düşüncələr dəyişməlidir. Bütün sahələrdə.

**Söhbətləşdi: Məlahət Rzayeva**

## "Qarabağ klanı" boş oturmayacaq

### "Paşinyan hakimiyyəti üçün hələ təhlükə qalır"



"Yaxın aylarda hakimiyyətə qarşı yeni etiraz dalğasının ola biləcəyi qətiyyən istisna deyil"

"Ermənistanda hazırda vəziyyət qeyri-sabit və qeyri-müəyyən xarakter daşıyır. Baş nazir Nikol Paşinyan seçkilərdə qalib gəlsə də, hələlik öz siyasi mövqelərini möhkəmləndirməyə imkan tapmayıb. Böyük ehtimalla ona Ermənistana tam nəzarəti ələ keçirmək üçün bir neçə ay vaxt lazım gələcək".

Bu sözləri "Müstəqil Mətbuat Mərkəzi" İctimai Birliyinin sədri, politoloq Elçin Xalidbəyli düşmən ölkədəki daxili vəziyyət barədə "Şərq"ə danışarkən deyib.

E.Xalidbəylinin sözlərinə görə, Paşinyan hakimiyyəti üçün hələ də təhlükə var: "Böyük ehtimalla seçkilərin nəticələrindən narazı qalan "Qarabağ klan"ı siyasi böhranı dərinləşdirməyə cəhd göstərəcək. Hətta keçmiş prezident, hərbi cinayətkar Robert Koçaryan Paşinyan hakimiyyətini buna qədər olan siyasi fəaliyyətinə yenidən baxmayacağı təqdirdə, növbəti seçkilərin qaçılmaz olacağı ilə hədələyib.

Yəni Paşinyan hakimiyyətinin daxili problemləri hələ öz aktuallığını itirməyib. Yəqin ki, Paşinyan hakimiyyəti üçün daxili təhlükə faktorunun hansı səviyyədə ciddi olduğu yeni hökumətin tərkibi müəyyən edildikdən sonra daha aydın olacaq. Çünki yeni hökumət qurulduqdan sonra Paşinyan hakimiyyəti üçtərəfli anlaşmaların icrasına başlayacaq.

Onu sərhədlərin demarkasiyası kimi taleyüklü proses gözləyir. Azərbaycan öz haqlı və prinsipial mövqeyi ilə Ermənistanı küncə sıxışdırmaqda davam edəcək. Təbii ki, bütün bunlar və nəticələri Ermənistanda daxili siyasi proseslərə birbaşa təsir göstərəcək. Paşinyan hakimiyyətinin siyasi rəqibləri Azərbaycanla əldə olunan bütün anlaşmaları, yəqin, daxili auditoriyaya öz maraqlarına cavab verən məzmunda təqdim etməyə və Ermənistan cəmiyyətində ciddi narazılıq yaratmağa çalışacaqlar. Bu baxımdan, yaxın aylarda Paşinyan hakimiyyətinə qarşı yeni etiraz dalğasının ola biləcəyi qətiyyən istisna deyil".

Analitik, həmçinin qeyd edib ki, bunun ilkin əlamətləri artıq müşahidə edilməyə başlayıb: "Qarabağ klanı"na yaxın mətbuat orqanları Baş nazir Nikol Paşinyanın bu ilin payız aylarında Azərbaycanın maraqlarına uyğun məzmunda yekun sülh sazişini imzalayacağını iddia edir. Elə yalnız rəsmən təsdiqi olmayan bu iddialar belə, Ermənistanda siyasi etirazların yenidən qızışmasına səbəb olmaqdadır.

Digər tərəfdən, Paşinyan hakimiyyəti yekun sülh sazişini mümkün qədər tez imzalaya bilməsə, Ermənistanın blokada şəraiti uzanacaq. Bu isə sosial-iqtisadi böhranın daha da dərinləşməsi anlamına gəlir. Yəni Paşinyan hakimiyyətinə qarşı sosial-iqtisadi tələblərlə də etirazların baş qaldırması istisna deyil.

Göründüyü kimi, Paşinyan hakimiyyətini olduqca ağır bir yeni mərhələ gözləyir. Rəsmi İrəvan yaxın aylarda çarpaz təzyiq altında olacaq. Buna necə tab gətirə biləcəyi hələlik məlum deyil. Bütün bunlar onu göstərir ki, istənilən halda, seçkilərdə qalib gəlsə də, Paşinyan hakimiyyəti üçün real təhlükə hələ uzun müddət qalacaq.

Əgər bu vəziyyətdən operativ və ən doğru çıxış yolları tapılmasa, Ermənistanda daxili ziddiyyətlər silahlı toqquşmalara və hətta hakimiyyət çevrilişi cəhdlərinə qədər dərinləşə bilər".

**Kənan Novruzov**

## Ermənistan öz ərazisində rus qoşunlarını görmək istəyir

Erməni mənbələr Azərbaycanla Ermənistan sərhədinin Geqarkunik bölgəsində Rusiya hərbçilərinin yerləşdiriləcəyi məlumatlarını yayıb. Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan və baş qərargah rəisi Artak Davtyan məlumatı təsdiqləyib. Məlumatda diqqət çəkən məqam Rusiya hərbçilərinin sərhədin Azərbaycan yox, Ermənistan tərəfdən olan hissəsində və Sotk-Xoznavar istiqamətində yerləşəcəyidir. Bəs proseslər hansı istiqamətdə inkişaf edir? Bütün bunlar Azərbaycanın əleyhinədirmi?



*"Bununla onlar guya, Azərbaycanda bir narahatlıq, təşviş yaratmağa çalışır"*

**Suallarımızı cavablandıran siyasi-şərhçi Turan Rzayev "Şərq"ə açıqlamasında vurğulayıb ki, erməni tərəfi məqsədli şəkildə bu tipli xəbərlərlə psixoloji təsir yaratmağa çalışır.** O qeyd edib ki, xüsusilə də Ermənistan ictimaiyyətdə bu tipli xəbərləri çoxluqla yayaraq bir növ regionda gərginliyin artacağı ilə bağlı müharibə eyforiyası yaratmaqda maraqlıdır: "Bununla da ölkə daxilində anti-müharibə tərəfdarı olan qüvvələrin qıcıqlanmasını istəyir. Görünür ki, erməni tərəfi Azərbaycanda bir narahatlıq, təşviş yaratmağa çalışır. Yəni baxın, Rusiya bizim sərhədlərimizi qoruyur, Azərbaycan tərəfi də artıq Rusiya ilə üzüzə qalacaq və s. Xüsusilə də Şuşa Bəyannaməsindən sonra ermənilər regionda Azərbaycan və Rusiyanın arasını vurmağa səy göstərir. Rəsmi Kremlin diqqətinə çatdırmağa çalışır ki, baxın, Azərbaycan türkləri Cənubi Qafqaza buraxdı və bu da sizin buradakı nüfuz dairənizin azalmasına gətirib çıxaracaq. Erməni tərəfinin indiki halda ən böyük siyasəti sırf bununla bağlıdır. Təbii ki, bu, Azərbaycan üçün narahatlıq doğuran bir məqamdır. Fikrimcə, Rusiya Paşinyanın hakimiyyətdə qalmasından sonra İrəvana təzyiqləri artırıb. Yəni İrəvan Qərbə meyl edir, habelə Nikol Paşinyanın özü də Qərb meyilli şəxsdir. Ümumiyyətlə, Kreml İrəvanı itaətdə saxlamaq istəyir və bu ölkədəki hərbi mövcudluğunun sayını artırmaqda maraqlıdır".

**T.Rzayev qeyd edib ki, sərhədlərin delimitasiya və demarkasiya prosesi istiqamətində rusların sərhəddə olması Azərbaycanın daha çox işinə yarıyır, nəinki ermənilərin:** "Ermənilər istənilən halda təxribat törətməyə çalışır. Görünür, Kreml də bunu başa düşür və artıq prosesə özü müdaxilə edib. Hətta yayılan bəzi videolarda da erməni tərəfi məqsədli şəkildə Azərbaycan sərhədlərini biləərəkdən dəyişdirməyə və təhrif etməyə səy göstərir. Yəni indiki halda rusların əsas məqsədi görünür ki, ermənilərin bu kimi təxribatlarının qarşısını almaq və ən qısa zamanda sərhədlərin delimitasiya və demarkasiya prosesini gerçəkləşdirərək nəqliyyat-kommunikasiya xətlərini açmaqdır. Yəni onlar bölgədə nəqliyyat-kommunikasiya sistemlərinin bərpa olunmasında maraqlıdırlar. Düşünürəm ki, məhz bu proses də bizim xeyrimizə ola bilər. Bir məsələ də var ki, görünür, bu yolla Paşinyan sərhədlərin gələcəkdə bərpasında "Qarabağ klanı"nın ona qarşı verəcək arqumentlərindən yayınmağa çalışır. Yəni ki, baxın, ruslar bu prosesi tənzimlədi və biz rusları sərhədə qoymuşuq. Paşinyan onun bu işdə bir günahı yoxdur kimi təəssürat yaratmağa çalışır. Ümumiyyətlə, nəticə etibarilə bu proses bizim lehimizədir. Görünür, regionda siyasi konfiqurasiya formalaşır. Bu konfiqurasiyanın fonunda Kreml prosesi Türkiyə və Azərbaycanla birlikdə aparmaqda maraqlıdır. Çünki Rusiyanın özünə qarşı da bu günləri təzyiqlər var. Buna görə də istəyir ki, Cənubi Qafqazda proses tez tənzimlənsin və ən azından Cənubi Qafqazdakı iqtisadi məsələdə Rusiya əlavə gəlir götürə bilsin".

**Aynurə Pənahqızı**

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi




# 90-cı illərdən əleyhimizə çalışırlar

## *“Sərhədsiz reportyorlar” indi də Azərbaycana qarşı qərəzli mövqeyini davam etdirir*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Mətbuat Şurası "Sərhədsiz reportyorlar" təşkilatının xidməti fəaliyyətini yerinə yetirən ispaniyalı jurnalistlərin Ermənistan-Azərbaycan sərhədinin Kəlbəcər rayonu ərazisində Azərbaycan hərbçiləri tərəfindən guya ölümlə hədələndiklərinə dair tvitter hesabındakı paylaşımı ilə bağlı beynəlxalq təşkilatlara və xarici media qurumlarına müraciət ünvanlayıb.

Şuradan verilən məlumata görə, müraciətdə bildirilib:

- ”Sərhədsiz reportyorlar” təşkilatı özünün tvitter hesabında xidməti fəaliyyətini yerinə yetirən ispaniyalı jurnalistlərin Ermənistan-Azərbaycan sərhədinin Kəlbəcər rayonu ərazisində Azərbaycan hərbçiləri tərəfindən guya ölümlə hədələndiklərinə dair paylaşım edib.

Azərbaycan Mətbuat Şurası olaraq bildiririk ki, Ermənistan müharibə müddətində söz və ifadə azadlığı müstəvisində çoxsaylı manipulyasiyalara, Azərbaycanın nəzarətində olan ərazilərdə hadisələri işıqlandıran jurnalistlərə qarşı hücumlara yol verib. Ermənistan hakimiyyəti eyni zamanda media təmsilçilərini bilərəkdən döyüş intensivliyi ilə seçilən bölgələrə, beynəlxalq hüquqla Azərbaycanın tərkib hissəsi sayılan ərazilərə aparıb ki, onların həyatları üçün təhlükə yaransın və bunu jurnalistikaya təzyiq kimi qiymətləndirsin. Həmin vaxt ”Sərhədsiz reportyorlar” məsələni susmaqla qarşılayıb, heç bir münasibət bildirməyib. Təşkilat işğaldan azad edilmiş Kəlbəcər rayonunda azərbaycanlı jurnalistlərin mina partlayışı nəticəsində həyatlarını itirmələrinə də səssiz qalıb. Belə bir vəziyyətdə qurumun ispaniyalı jurnalistlərin həyatlarından guya narahatlıq ifadə etməsi, bunu heç bir real fakta əsaslanmadan göstərməsi təəssüf doğurur. Aydındır ki, bu, ”Sərhədsiz reportyorlar”ın Azərbaycana qarşı növbəti qərəzidir.

Təşkilat Azərbaycana münasibətdə o qədər qərəzlidir ki, Ermənistanla sərhəddə dayanmış Azərbaycan hərbi qulluqçusunun əlindəki silahla qarşı tərəfi nişanda saxlamaq kimi vəzifə borcunu hədə olaraq qəbul edib. Qurumun tvitter paylaşımındakı foto görüntüdən bu qənaətə gəlmək mümkündür. İspan jurnalistlərin guya ölümlə hədələnmələrinin sübuta yetirilməsi cəhdi çox gülünc və absurddur. Azərbaycan hərbçiləri qarşı tərəfə atəş açmayıb.

Bir daha bildiririk ki, ”Sərhədsiz reportyorlar” təşkilatı Azərbaycana qarşı qərəzli mövqeyini davam etdirir. Tvitter səhifəsindəki paylaşım bunun real sübutudur. Dünyada tanınmış media qurumunun Azərbaycanla bağlı bu sayaq ucuz və bəsit gedişlərə yol verməsi ölkəmizin media ictimaiyyətində dərin hiddət hissi doğurur. İstərdik ki, sizlər də əsl həqiqətlərdən xəbərdar olasınız, söz və ifadə azadlığı müstəvisindəki manipulyasiyaların qarşısının alınması üçün səfərbərlik nümayiş etdirəsiniz. Biz bu qənaətdəyik ki, bəşəri dəyərlər heç bir maraqlı tərəf və ya tərəflərin, o cümlədən ”Sərhədsiz reportyorlar” təşkilatının əlində alətə çevrilməməlidir.

**Mövzu ilə bağlı Mətbuat Şurası sədrinin müavini, Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli ”Şərq”ə açıqlamasında vurğulayıb ki, ”Sərhədsiz reportyorlar” təşkilatının Azərbaycana qarşı bu cür yalançı, neqativ informasiya yayması ilk dəfə deyil. O qeyd edib ki, ”Sərhədsiz reportyorlar” 90-cı illərdən başlayaraq bu günə kimi birmənalı şəkildə Azərbaycana qarşı yalançı, neqativ rəyin formalaşması üçün çalışıb:** ”Bu təşkilat əlinə düşən hər fürsətdə bu addımı atıb. Hətta qeyd edim ki, İkinci Qarabağ savaşında və ondan sonrakı dövrlərdə də ”Sərhədsiz reportyorlar” tərəfindən Azərbaycana qarşı qərəzsiz siyasətin həyata keçirildiyini çox aşkar şəkildə gördük. Misal olaraq bir neçə nümunə deyə bilərik. Məsələn, hamımız bilirdik ki, İkinci Qarabağ savaşı dövründə Ermənistan media üzərindən informasiya manipulyasiyaları həyata keçirirdi. Bu məqsədlə xaricdən olan bir çox jurnalistləri cəbhə bölgəsinə gətirib atəşin altına salmaqla, dünyaya belə bir fikir aşılamaq istəyirdi ki, guya, Azərbaycan tərəfindən Ermənistan jurnalistlərinə qarşı atəş açılıb. Hansı ki, bunlar tamam yanlış informasiyalar idi. Ancaq Azərbaycanın özünün jurnalistləri Ermənistan ordusu tərəfindən dəfələrlə atəşə məruz qaldılar”.

"Onların cavabını həmişə verməliyik, çünki meydanı boş buraxsaq yalanları, təxribat xarakterli informasiyaları daha da çox tirajlayacaqlar"

**M.Ələsgərli diqqətə çatdırıb ki, müharibə dövründə də ”Sərhədsiz reportyorlar” haqsız olaraq Azərbaycana qarşı bəyanat yaydılar:** ”Təşkilat müharibə dövründə tvitter hesabından açıqlama yaydı ki, guya, Dağlıq Qarabağın Xankəndi şəhərində 80 yerli və xarici jurnalist qalıb və Azərbaycan beynəlxalq jurnalistləri mühasirədə saxlayır. Onların çıxıb getməsinə imkan vermir. Yəni çoxsaylı belə nümunələri göstərmək olar. Qeyd edim ki, həmin vaxtlar ”Sərhədsiz reportyorlar” məhz erməni şəbəkəsinin tərəfindən çıxış edərək onların maraqlarına uyğun olan informasiyaları yayırdı. Hansı ki, həmin vaxtda ”Sərhədsiz reportyorlar”ın Ermənistana qarşı bəyanat verməsi üçün kifayət qədər faktları var idi. Məsələn, bildiyiniz kimi, o vaxt Fransa TF1 kanalı Qarabağda həqiqətləri səsləndirdiyi üçün erməni icması tərəfindən hücuma məruz qaldı və terror aktı ilə hədələndi. Lakin həmin vaxtlarda ”Sərhədsiz reportyorlar” susdu. Çünki orda cinayəti törədən erməni tərəfi idi. Lakin onlar buna layiqli cavab verə bilmədi. Belə nümunələr çoxdur. Yaxud da ki, iyunun 4-də bilirsiniz ki, azərbaycanlı jurnalistlər Kəlbəcərdə ermənilərin basdırdıqları minaya düşərək həlak oldular. Həmin hadisə barədə bütün beynəlxalq təşkilatlar bəyanat verdilər, amma bu təşkilat yalnız beş gündən sonra ümumi bir münasibət bildirən açıqlama yaydı. Bütün bu nümunələr onu göstərir ki, ”Sərhədsiz reportyorlar”ın fəaliyyətində daimi olaraq Ermənistan tərəfini haqlı, Azərbaycan tərəfini isə haqsız göstərməyə yönəlmiş bir siyasət yürüdülür. Bu isə beynəlxalq təşkilata yaraşmayan hadisədir. Yəni beynəlxalq təşkilat obyektiv, neytral olmalı və hər kəsə bərabər gözlə baxmalıdır. Amma biz bunu ”Sərhədsiz reportyorlar”da görmürük”.

M.Ələsgərli əlavə edib ki, ”Sərhədsiz reportyorlar” uzun müddətdir ki, Azərbaycana qarşı bu cür qərəzli davranış nümayiş etdirirlər: ”Son bir il müddətində onun bu cür fəaliyyəti Azərbaycanın media ictimaiyyəti tərəfindən daim izlənilir. Onun yanlış hərəkətinin ifşa olunması üçün bir sıra proseslər həyata keçirilir və yanlışlıqlarına qarşı obyektiv cavablar verilir. Bu baxımdan Azərbaycan Mətbuat Şurasının, Azərbaycan Jurnalistlərinin Həmkarlar İttifaqının, eyni zamanda ayrı-ayrı media qurumlarının ”Sərhədsiz reportyorlar”ın bu cür yanlış hərəkətləri barədə bəyanatlar səsləndirilir. Hesab edirəm ki, onların Azərbaycana qarşı bu qərəzsiz fəaliyyətinin ifşa olunması baxımından bəyanatların verilməsi lazımlı bir addımdır. Qeyd edim ki, bütün bunlar artıq öz nəticəsini verməkdədir. Nəzərə çatdırım ki, bu cür bəyanatlar, açıqlamalar cavabsız qalmır. Həmçinin bunlar beynəlxalq digər ictimai təşkilatların nəzərinə çatdırılır və onlar ”Sərhədsiz reportyorlar”a qarşı düzgün addımlar atmaq üçün artıq istiqamətləndirilirlər.

**Mövzu ilə bağlı ”Şərq”ə açıqlamasında Mətbuat Şurasının İdarə Heyətinin üzvü Azər Həsrət Azərbaycana qarşı belə bir yanaşmanı qərəzdən doğan hal kimi qiymətləndirib:** ”Yəni bunun özü onun göstəricisidir ki, Azərbaycana yanaşma qərəzlidir və bunun heç bir əsası yoxdur. Çünki Azərbaycan o ölkələrdəndir ki, burada dövlət heç bir halda medianın fəaliyyətinə maneçilik törətmir, eyni zamanda heç bir formada müdaxilə etmir. Qeyd edim ki, ”Sərhədsiz reportyorlar”ın paylaşımı anonim xəbərçilik kateqoriyasına aid bir paylaşımdır. Çünki konkret ad çəkilmir, hansısa ispaniyalı jurnalistlərin guya ölümlə təhdid edildiyi deyilir. Mən ”Sərhədsiz reportyorlar”ı paylaşımlarının altında ciddi xəbərçiliyə dəvət elədim. Hətta bunun saxta xəbərçilik olduğunu qeyd elədim. Qeyd edim ki, ”Sərhədsiz reportyorlar” Azərbaycan, Türkiyə və ümumən türk dünyasına qərəzli mövqeyi ilə seçilir. Parisdə yerləşən bu təşkilat ənənəvi anti-türk əhvallı bir təşkilatdır və bizi sevmir. Bu təşkilat Türkiyədə, Azərbaycanda və türk dövlətlərində nə baş verərsə, araşdırmadan dərhal onu paylaşırlar. Amma göründüyü kimi, Azərbaycan jurnalistlərinin Kəlbəcərdə minaya düşməsi ilə bağlı onlar bir açıqlama yaymadılar. Amma indi hansısa anonim jurnalistlərin, guya, Azərbaycan əsgəri tərəfindən ölümlə təhdid edildiyi haqqında bir paylaşım ediblər. Təbii ki, bu, Azərbaycana qarşı qərəzdir və düşmən münasibətdir. Düşünürəm ki, Azərbaycan Mətbuat Şurası çox doğru bir addım atdı və beynəlxalq qurumlara bununla bağlı müraciət göndərdi. Biz bunların arxasınca daim getməliyik. Onlar daim nəfəsimizi boyunlarının arxasında hiss etməlidirlər. Çünki meydanı boş buraxsaq bu cür yalanları, təxribat xarakterli informasiyaları daha da çox tirajlayacaqlar”.

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# "Ömrümün əsas hissəsini qələmə və sözə bağladım"

Sözün qüdrəti səs və qələm gücü ilə qəlblərə yol tapır. Bu qüdrət sahibləri əsrlərin, qərinələrin, illərin süzgəci ilə yaşam ölməzliyi qazanır. Bəli, bu günümüzün söz sahiblərinin ünvanı qəlblərdi. Həm də həssas qəlblər.... Ağahüseyn Hüseynov... Bir söz ömrünə müəllif... Bir qələm taleyinə dost... Bir müəssisəyə qismət... "Bakı" qəzetinin baş redaktoru... Çoxsaylı jurnalist həmkarına ustad... 80 illik ömrə möhür... Bu qələm sahibinin qəlbindən süzülənləri sözlə ipə-sapa düzürük.



Ağahüseyn Hüseynov: "Çalışdım cəmiyyətə faydalı olum, peşəmə sadiqliyim əsas meyarım oldu"

**- Jurnalistika nədir, bir elm kimi nəyi ehtiva edir?**

- Bəli, jurnalistika elmdir. Həm də çox zəngin bir elmdir. Jurnalist qələmi olduqca çox böyük gücə malikdir. Bu sənətə gəldinsə hər zaman axtarışda olmalısan, yaradıcılığın çoxşaxəli olmalıdır. Jurnalistika böyük zəhmət, xüsusi səy, professional qiymətləndirmə və prosesləri düzgün analiz bacarığı tələb edən sənətdir.

**- Fəaliyyətiniz dövründə bir jurnalist kimi ən əsas nəyə üstünlük verirsiniz?**

- Ömrümün əsas hissəsi qələm və söz ilə bağlı olub. Fəaliyyət dövrümdə həmişə çalışmışam ki, qələmin obyektivliyinə söykənim, vətəndaşlıq mövqeyimə sadiq qalım. Bu mənim cəmiyyətdə elmi ictimai-siyasi sahədə tutduğum əsas prinsiplərdən biridir. Məncə, hər bir jurnalist bu prinsipə söykənməlidir.

**- Sevib, seçdiyiniz bu peşədə ustadlarınızın rolu da əvəzsizdir, deyilmi?**

- Əlbəttə. Müəllimlərimin rolu mənim yaradıcılıq taleyimdə böyük rol oynayıb. Onlardan biri və əvəzolunmazı böyük müqtədir insan, peşəkar jurnalist, böyük insan Nəsir İmanquliyev olub. Yaxşı xatırlayıram... Mən Nəsir müəllimi ilk dəfə 1958-ci ilin yayında görmüşəm. "Kommunist" nəşriyyatının darısqal sexində "Bakı" qəzetinin səhifələnməsi üçün taler dəzgahının önündə hündürboylu, bir qədər dolğun, lakin tipik ziyalı görünüşlü bir şəxs dayanmışdı və o gündən mənim böyük müəllimlə uzun illərin birgə fəaliyyətinin təməli qoyuldu.

Zəngin həyat və iş təcrübəsi olan bu müdrik insanın, üstəlik də gözəl seçmə keyfiyyəti və qabiliyyəti var idi. Nəsir müəllimin qəzetə gətirdiyi gənclərin bir çoxu sonralar mətbuatda rəhbər vəzifələrə yüksəliblər. Otuz il ərzində jurnalist sənətinin incəliklərini, redaktənin sirlərini, idarəetmə bacarığını ondan öydəndim, əsl həyat məktəbi keçdim. Bütün bunlara görə Nəsir müəllimə dönə-dönə minnətdaram, onun ruhu qarşısında baş əyirəm.

Nəsir Əsədulla oğlu İmanquliyev - milli mətbuatın patriarxı, böyük mühərrir, jurnalistikamızın ağsaqqalı, zəhmətsevər, bacarıqlı idarə başçısı, əla təşkilatçı və ictimai xadim, nəhayət, sayqılı redaktor, ləyaqətəxlaqi insan, vətəndaş, vətənpərvər bir şəxsiyyətdir.

İndi iftixar hissi ilə deməli olar ki, Nəsir müəllimin redaktoru olduğu şəhər qəzetləri Azərbaycan milli mətbuatında sanballı iz qoymuş və onun rəhbərlik etdiyi özünəməxsus dəst-xətlə, təlim və tərbiyə üsullarına malik milli jurnalistika universiteti idi.

Mənim onunla ünsiyyətim ömrümün son gününə qədər davam etdi. O həmişə mənə zəng edib qəzetdə gedən maraqlı yazılara öz münasibətini bildirərdi, lazım gələndə iradlarını da çatdırardı. Tam əminliklə deyə bilərəm ki, kollektivdən, bizlərdən çoxunun öz redaktoru ilə sıx ailə münasibətləri yaranmışdı. Nəsir müəllim bir nümunə olub daima qəlbimizdə yaşayacaq.

**- Uzun illər "Bakı" qəzetinin baş pedaktoru olaraq bu fəaliyyəti necə dəyərləndirirsiniz?**

- "Bakı" - "Baku" qəzetləri zərurətdən doğulub. O vaxtlar respublikada, həmçinin paytaxtda böyük quruculuq işləri görülürdü. Yeni müəssisələr açılırdı. Şəhər abadlaşırdı, sakinlərin rahatlığı üçün bütün imkanlardan istifadə edilirdi. Bu siyasəti dolğun və düzgün ictimaiyyətə çatdırmaq üçün "Bakı" və "Baku" qəzetlərinin üzərinə böyük məsuliyyət düşürdü. Qəzet obyektivliyi və operativliyi ilə ilk nömrələrindən oxucularının rəğbətini qazandı.

O zaman rəsmi qəzetlər partiya-bürokrat diktəsi ilə işıq üzü görürdü.

> "Prinsipiallıqla və peşəkarlıqla hər şeyə nail olmaq olar"

Təbii ki, belə möhkəm olan çərçivədə bütün düzgünlüyü oxuculara çatdırmaq çox çətin idi, lakin "Bakı" - "Baku" qəzetləri bütün çətinliklərə baxmayaraq öz aktuallığını və yüksək reytinqini qoruyub saxlaya bilmişdi.

Bu gün mətbuat azaddır. Mətbuat orqanları istənilən mövzuları işıqlandıra bilər. Lakin bir sual? Nə şəkildə? Nə formatda? Və ən əsası qərərsiz və obyektivliyi ilə.

**- Müasir dövrün diktəsi, onlayn fəaliyyət, dijital platforma qəzet oxucusunu qəzetdən uzaqlaşdırır. Buna necədir münasibətiniz?**

- Bəli, bu gün qəzetlər öz oxucularını itirirlər. Əlbəttə, burda zamanın da hökmü var. Bu günün reallıqları başqadır, lakin bütün bunlara baxmayaraq peşəsinə hörmət edən, onu düzgünülüyün, ədalətin güzgüsü hesab edən jurnalistlər indi daha çox lazımdır. Qoy bütün platformalarda fəaliyyət göstərən gənc qələm sahibləri öz peşələrinə daha vicdanla, məsuliyyətlə yanaşsınlar. Dogru, düzgün, qərəzsiz informasiyaları geniş auditoriyaya çatdırmağı özlərinə vəzifə borcu bilsinlər. Təbii, bəzən bu, o qədər də asan olmur. Amma prinsipiallıqla və peşəkarlıqla hər şeyə nail olmaq olar.

**- Ağahüseyn müəllim, 80 illik ömrün 80 baharı, 80 payızı... Ömrün Günəşi, ömrün sazağı... Bu gün Ağahüseyn Hüseynov bu ömür yoluna necə qiymət verərdi?**

- Əlbəttə, həyat enişi, yoxuşu, istisi, soyuğu ilə maraqlıdır, sevimlidir. Çalışdım cəmiyyətə faydalı olum, peşəmə sadiqliyim əsas meyarım oldu. Xalqımı, vətənimi sevirəm. Bir ziyalı kimi ölkəmin bütün uğurlarını fəxrlə izləyirəm və alqışlayıram. Jurnalistikanın gələcəyinə inanıram. Müasir texnologiyaların sayəsində bizim mütəxəssislərin də hüdudlardan kənarda tanınacağına inanıram.

- Biz sizə sonsuz təşəkkür edirik. Sizə can sağlığı, uzun ömür arzu edirik!

**Fəxriyyə Lilpar İsayeva**

# Ən böyük təhdid Qarabağda yaşayan etnik ermənilərdir

## *Paşinyanın bütün problemlərinin həlli sülh sazişindən keçir*

Ermənistanda keçirilən növbədənkənar seçkilərin nəticələri Azərbaycan ərazilərində yaşayan etnik ermənilərlə bağlı müzakirələrin ölkə gündəmindən çıxılmasına zəmin yaratdı. Eks prezidentlər Robert Koçaryan, Serj Sarkisyan və digər müharibə canilərinin postmüharibə dövründə başlatdıqları revanşist dalğa, "Miatsum" hərəkatı iflasa uğradı.

Bu ideyanın Ermənistanda yenidən gündəmə gətirilməsi üçün əlverişli zəmin olmadığı bir daha öz təsdiqini tapdı. Bu həm də "Qarabağ klanı"nın Ermənistandakı ictimai rəyə təsir imkanlarının sıfır nöqtəsinə yaxınlaşdığını və birləşdirici amildən dağıdıcı siyasi-ideoloji faktora çevrildiyini sübuta yetirdi. Separatçıların Xankəndidən revanş götürmək cəhdlərinin də Ermənistanın ictimai rəyinə təsir göstərmədiyi göz qabağındadır. Ermənistanın aparıcı media qurumlarının Xankəndidən səslənən "istefa" şüarlarına əhəmiyyət verməməsi də sübuta yetirir ki, "Qarabağ" mövzusu ictimai rəydə ən sonuncu yerlərdən birini tutur.

Siyasi şərhçi Elçin Mirzəbəyli hesab edir ki, artıq Ermənistan vətəndaşları "Qarabağ" mövzusunu öz təhlükəsizliklərinə və bütövlükdə isə Ermənistanın bir dövlət kimi mövcudluğuna təhlükə kimi görürlər. Analitikin sözlərinə görə, açıq etiraf olunmasa da, bu, Ermənistanın siyasi hakimiyyəti daxil olmaqla, əksər siyasi partiyaların qənaətini ifadə edir: "Daha açıq və konkret desək, indi Ermənistan üçün əsas təhdid Azərbaycan və Türkiyə deyil, Qarabağda yaşayan etnik ermənilərdir. Əgər Xankəndidə separatçıların yenidən baş qaldırmasına imkan yaradılarsa və Rusiya sülhməramlıları prosesə müşahidəçi kimi yanaşarsa, bu, Moskvanın separatçıları tamamilə öz nəzarətinə keçirmək, oyuncaq bir rejim formalaşdırmaq niyyətindən xəbər verəcək. Koçaryan və digərlərinin məqsədi də elə bundan ibarətdir. Onlar istifadəyə yararlı olduqlarını sübuta yetirmək üçün bütün vasitələrdən yararlanacaqlar. Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasına mane olmağa çalışacaqlar. Məhz bu səbəbdən sülh sazişinin mümkün qədər tez zamanda imzalanması, həmçinin kommunikasiyaların açılması mövcud şəraitdə ilk növbədə Ermənistanın öz təhlükəsizliyi üçün həyati əhəmiyyət kəsb edir".

E.Mirzəbəyli düşünür ki, Paşinyan Ermənistan vətəndaşlarının sosial-iqtisadi durumunda nəzərəçarpacaq dəyişikliklər etməli və revanşist qüvvələrin əhatə dairəsinin maksimum daralmasına cəhd göstərməlidir: "Bunun da yolu sülh sazişindən və 10 noyabr Bəyannaməsində nəzərdə tutulan tədbirlərin gerçəkləşməsindən keçir. Qənaətimə görə, Nikol Paşinyanın parlamentdən kənarda qalan siyasi qüvvələrin rəhbərləri ilə keçirdiyi görüşlərin əsas motivini də yuxarıda sadaladığım məqamlar təşkil edir. Parlament müxalifəti ilə məsələ aydındır. Onlar seçkilərin nəticələrini tanımadıqlarını bəyan ediblər. Hətta onların iclaslara gəlməmələri də, nəticə etibarilə hökumətin formalaşmasına, həmçinin qərarların qəbul edilməsinə mane olmayacaq. Ermənistan qanunvericiliyində parlament azlığının iclaslara qatılmaması yolu ilə



Koçaryan və digər revanşist qüvvələr Xankəndidə ən ağlasığmaz təxribatlara baş vuracaqlar

parlamentin buraxılması və təkrar seçkilərin keçirilməsi mexanizmi yoxdur. Koçaryan, Sarkisyan və digərləri, seçkilərin nəticələrini tanımadıqlarını bəyan etməklə, əslində özlərini çıxılmaz duruma salıblar. Bu bəyanatlardan sonra onların parlamentin iclaslarına qatılması onsuz çox aşağı olan reytinqlərini yerlə bir edə bilər".

Politoloqun fikrincə, Koçaryan və himayəçiləri Ermənistanın ictimai rəyini zəhərləməyə davam edəcəklər: "Robertin prezidentliyi dönəmində, Ermənistanın xarici işlər naziri olmuş Vardan Oskanyanın bu günlərdə yayımlanan məqaləsi bunu sübuta yetirir. Oskanyanın qənətinə görə, Azərbaycan ilk növbədə qısa müddət ərzində anklavlarla bağlı məsələni həll etməyə, sərhədlərin delimitasiya və demarkasiyası prosesini başa çatdırmağa çalışacaq. Rəsmi Bakının növbəti tələbi Zəngəzur dəhlizinin reallaşması, üçüncü istəyi isə sülh sazişinin imzalanması olacaq. Oskanyan bütün bunların Ermənistanın təhlükəsizliyi üçün ölümcül təhdidlər olduğunu, buna baxmayaraq Nikol Paşinyanın Azərbaycanın tələblərinə əməl etməyə hazırlaşdığını bildirib. Robertin baş diplomatı düşünür ki, Ermənistanın gündəmini Azərbaycan müəyyənləşdirir və bu baxımdan da onlar öz suallarını yaratmalı və vasitəçilərin iştirakı ilə rəsmi Bakının bu suallara cavab verməsinə nail olmalıdırlar. Oskanyanın məqaləsi mövcud zaman kəsiyində təsadüfən gündəmə gəlməyib. Verilən mesajlardan da açıq-aydın görünür ki, bu prosesdə hazırda Rusiya hakimiyyətində təmsil olunmayan, lakin bu ölkənin xarici siyasət idarəsinin nəzarətində olan Kazimirov kimi "diplomat"ların da barmağı var. Rusiyadakı dairələr tərəfdarları "Qarabağ separatçıları" ilə bağlı məsələnin tarixin arxivinə göndərilməsini istəmirlər və müqavimət göstərməkdə davam edəcəklər. Bu baxımdan məğlub ölkənin gündəmi intensiv "raket atəşinə" tutulmalıdır".

**İsmayıl Qocayev**

# Günvurma ölümə gətirib çıxarır



*Gündüz saat 12:00 və 17:00 arası günəş şüalarının altında dayanmaq olmaz*

Havaların birdən-birə kəskin dəyişməsi, anormal istilərin düşməsi insanları çaş-baş salıb. Qan təzyiqinin artmasından, baş ağrılarından, ürək tutmalarından, ümumi zəiflikdən şikayətlənənlərin sayı çoxalıb.

Təbiət insanla sanki oyun oynayır. Dəyişkən hava şəraiti xüsusən meteohəssas insanlarda narahatlıq hissi yaradır. İnsanlar hətta küçəyə də çıxmağa ehtiyat edirlər.

**İstidən düzgün qorunma qaydalarını izah edən tibb elmləri doktoru, professor Adil Qeybulla ”Şərq”ə açıqlamasında ilk olaraq birbaşa günəş şüaları altında uzun müddət qalmamağı tövsiyə edib.**

Professor bildirib ki, açıq havada çox qalmaq yayda ən çox rastlaşdığımız günvurmaya gətirib çıxara bilər: ”Anomal hava şəraiti dövründə sakinlər mümkün qədər kondisionerdən istifadə etməli, sərin yerdə istirahət etməlidirlər. Gündüz saat 12:00 və 17:00 arası günəş şüalarının altında dayanmamaq lazımdır. Mümkün qədər günvurma, istivurma hallarından qorunmaq lazımdır. Belə istilərdə orqanizm uzun müddət daxili temperaturunu bərpa edə bilmir. Qan laxtalanır, həddindən artıq buxarlanma baş verir, həyat üçün çətin situasiya yaranır.

Gün vuran şəxsi dərhal həmin zonadan uzaqlaşdırmaq lazımdır. Sərin, havalı, günəş şüasının düşmədiyi bir yerə aparılmalıdır. Artıq bundan sonra temperaturun aşağı düşməsi üçün başa yaş dəsmal qoyulmalı, xəstəyə su verilməli, müəyyən tədbirlər görülməlidir. İlkin yardımı göstərdikdən sonra həkim çağırmağınız məsləhətdir”.

Həkimin sözlərinə görə, istiliyin orqanizmdə müəyyən həddən artıq olması bioloji və biokimyəvi proseslər pozur:

”Zülalların mübadiləsi, qanın qatılaşması baş verir. Nəticədə toxumalar nəfəs ala bilmir və ölümə gətirib çıxarır. Ona görə də günvurma və istivurma hallarına ciddi yanaşmaq lazımdır. Belə narahatlıq hiss olunduqda ətrafdakı insanlar dərhal kömək etməlidir”.

**Yeganə Bayramova**

## Koronavirus Rusiya və Gürcüstanı sarsıdıb

Ölkəmizdə vaksinasiya prosesini ciddi nəzərə almaq vacibdir



**Son günlər qonşu Gürcüstanda koronavirusa yoluxanların sayı 1000 nəfəri keçib. Rusiyada vəziyyət Gürcüstandan da bərbaddır. Hər iki ölkədə hind ştammı sürətlə yayılır.**

İndiyə qədər ”Delta” adlanan hind ştammı qonşu Rusiya və Gürcüstan daxil olmaqla, dünyanın 90-dan çox ölkəsində qeydə alınıb. Hər iki qonşu ölkə ilə sərhədlərimizin açılması gözlənilir. Bu zaman vəziyyətin bizdə də pisləşəcəyinə dair müəyyən iddialar səslənməkdədir.

Tanınmış həkim-psixoterapevt Əli Nağıyev ölkəmizdə hansısa təhlükənin olub-olmayacağına dair fikirlərini ”Şərq”lə bölüşüb:

”Koronavirus təcrübəsi göstərir ki, qonşu ölkələrdə virusa yoluxma sayında artım varsa, ölkəmizdə də arta bilər. Eyni zamanda İsraildə yoluxma artan xətlə davam edir. Gürcüstan və Rusiyada vəziyyət gərgindir və ölkəmizdə vəziyyətin pisləşməməsi üçün əhalinin diqqətli olması vacibdir. Qapalı məkanlarda deyilən qaydalara əməl etmək lazımdır. Eyni zamanda vaksinasiya prosesini də ciddi nəzərə almaq vacibdir. Vaksinasiya könüllü və əsaslı şəkildə davam etdirilməli, tam başa çatdırılmalıdır. O zaman yoluxmanın sürətlənməsinin qarşısını ala bilərik”.

**Yeganə**



# Boşanmaq ayıb və qəbahət deyil

*“Qəbahət 17 yaşlı qızı ərə vermək və onun zorlanmasına şərait yaratmaq, onunla maraqlanmamaqdır”*

Cəlilabad rayonunun Uzuntəpə kəndində dəhşətli hadisə baş verib. Zərərçəkmiş şəxs 2004-cü il təvəllüdlü Şükürova Gülnayə Bəxtiyar qızıdır. Rayonun Edişə kəndindən olan 17 yaşlı G.Şükürova 3 ay bundan öncə rayonun Uzuntəpə kəndində Mirzəyevlər ailəsinə gəlin köçüb. O, Mirzəyev İbrahim Cabir oğlu ilə ailə qurub. Lakin İ.Mirzəyev cinsi problemlərə görə ər funksiyasını yerinə yetirə bilməyib və G.Şükürovanın bəkarəti pozulmayıb.

Şükürovlar ailəsinin iddiasına görə, məsələnin bu cür olduğunu başa düşən Mirzəyevlər ailəsinin başçısı Cabir Mirzəyevin təklifi ilə digər oğlu Nicat Mirzəyev Gülnayənin razılığı olmadan ona təcavüz edib. Zorlanmanın təkrar-təkrar baş verdiyini görən Gülnayə özünü öldürmək istəyib. Lakin qayınatası və qayınanası onu sakitləşdirib, hədə-qorxu gəlib və bu hadisə haqqında heç yerdə danışmamağı tapşırıb. Zorlanma hallarının dəfələrlə baş verdiyi müddətdə Gülnayənin öz ailəsi ilə ünsiyyətinə qadağa qoyulub. Bu da onun valideynlərində şübhə yaradıb.

**Baş verənləri ”Şərq”ə dəyərləndirən yazıçı-jurnalist Türkan Turan bildirib ki, hadisədə yeganə günah valideynlərindir:**

”17 yaşlı bir qız həyatı ilə bağlı normal qərar verə biləcək ağılda deyil. Qızı ərə verən ana-ata övladı ilə maraqlanmazmı? Lakin bu olayların rayon və kənddə yaşayan valideynlərlə də əlaqəsi yoxdur. Bu yaxınlarda Bakıda çox məşhur bir həkimlə danışırdım. Eyni yanaşmanın şahidi oldum. Çünki həkimin qızı döyülürdü və mən nə üçün qızının boşanması üçün yardım etmədiyini soruşdum. Cavabında isə söylədi ki, ”əri onun başını kəsər”. Təsəvvür edin ki, bu ifadəni bir həkim deyir. Milli mentalitetimiz insanların üzərində o qədər ağırlıq yaradır ki, onu çıxarıb ata bilmirlər. Mental dəyərləri sanki bir pərdə kimi önlərinə çəkiblər və olaylara həmin pərdə arxasından baxırlar. Boşanmaq ayıb və qəhabət deyil. Qəbahət 17 yaşlı qızı ərə vermək və onun zorlanmasına şərait yaratmaq, onunla maraqlanmamaqdır”.

**T.Turan qeyd edib ki, 17 yaşlı qızın başına bədbəxt hadisə gəlməsəydi, övladı olanda onu da eyni təfəkkürdə böyüdəcəkdi:**

”İnsanlar təhsil almalıdır, amma bir tərəfdən də baxıram ki, bəzən bunun təhsillə əlaqəsi olmur. Çünki təhsil bizi belə hallardan xilas etmir, təhsil milli mentalitetimizdən daha ağırdır. Mental dəyərlər insanların üzərinə kölgə kimi çöküb. Maarifləndirməni çıxış yolu kimi qeyd etsəm də, alınmır. Çünki şəhərdə kitab oxuyanlar çox azdır. Cəmiyyət olaraq sanki burulğan içindəyik”.

**Yeganə Bayramova**

# Qəzalar hər dəfə təsadüfdən olmur

*Bəzən avtobus sürücüləri daha çox sərnişin götürmək uğrunda yarışa çıxırlar*




Bakıda avtobusların iştirakı ilə yol qəzası baş verib. M.Useynov prospektində 5 və 125 nömrəli müntəzəm marşrut xətti üzrə hərəkət edən iki sərnişin avtobusu toqquşub. Bununla bağlı Bakı Nəqliyyat Agentliyi məlumat yayıb.

Hadisə Bakı Nəqliyyat Agentliyi tərəfindən dərhal nəzarətə götürülüb və müvafiq araşdırma aparılır. Hər iki marşrut xətti üzrə daşıyıcı şirkət ”BakuBus” MMC-dən izahat tələb olunub.

Qəza nəticəsində ölüm halı qeydə alınmayıb. Sərnişinlərdən yeddi nəfər xəsarət alıb ki, onlara da ilkin tibbi yardım go?stərilərək evə buraxılıb.

**Baş verən hadisə barədə ”Şərq”ə danışan nəqliyyat üzrə ekspert İlqar Hüseynli bildirib ki, əksər hallarda işə götürülən sürücülər dəqiq yoxlamalardan keçmirlər. Məhz buna görə də xoşagəlməz hallar yaşanır:** ”Əlbəttə, sürücülər istəməzlər ki, qəza törətsinlər və insanlar xəsarət alsın. Sözsüz ki, burada səhlənkarlıq, diqqətsizlik və sürücülərin yol hərəkəti qaydalarına ciddi əməl etməməsi hadisənin əsas səbəblərindəndir. Məlumdur ki, hər bir marşrut xətti üzrə hərəkət edən avtobuslar hansısa şirkətə məxsusdurlar. Bu şirkətlərin də arxasında oliqarx məmurlar dayandıqda artıq sürücülərdə arxayınlıq yaranır, istədikləri kimi davranırlar. Düşünürlər ki, hansısa problem yaşansa, şirkət rəhbərliyi problemi həll edəcək. Təəssüf ki, vətəndaşlarımızda belə yanaşma və stereotiplər qalmaqda davam edir. Xidmət sektorunda çalışanları kifayət qədər sürücülük mədəniyyətinə və elitar təbəqələşmə sisteminə gətirib çıxara bilməmişik”.

**Ekspertin sözlərinə görə, bəzən iki şirkətin sürücüsü daha çox sərnişin götürmək uğrunda sanki yarışa çıxırlar:** ”Belə olduqca tez-tez qaydanı pozurlar, dayanacağa daha tez yaxınlaşaraq sərnişin götürmək istəyirlər. Sonra isə iki avtobusun qəza törətdiyinin şahidi oluruq.

Düşünürəm ki, şirkətlər işə götürdükləri sürücülərin həqiqətən də kateqoriya sahibi olduqlarını araşdırmalıdırlar. Hərdən elə şəxsləri işə götürürlər ki, onların iri tutumlu və çoxyerli nəqliyyat vasitəsini idarə etmək təcrübəsi yoxdur, ya da ümumiyyətlə, hüquqi olaraq sürücü vəsiqəsi mövcud deyil. Bu kimi faktorlar da belə qəzaların artmasına səbəb olur”.

**Yeganə**

# İstədikləri peşəni seçiblər



## *Mələkxanım Əyyubova övladlarına ancaq dəstək olur*

Xalq artisti Mələkxanım Əyyubova "Sözbaz" verilişinə həyatı və sənəti ilə bağlı açıqlamalar verib.

**"Şərq"in məlumatına görə, o, sözügedən proqramda bunları söyləyib:**

"Bədbin insanları sevmirəm. Ruhdan düşməməyə çalışırıq. Dostumu, tanışımı, sənət yoldaşımı görəndə pozitiv danışıram. Deyirəm, nə yaxşı, Allahım, bu sənəti mənə vermisən? Xalqa lazımam. İstəsəm də, istəməsəm də ayaqda qalmalıyam. Koronadan çox sənət adamlarını itirdik. Dostlarımızdan, yaxınlardan, doğmalardan bu xəstəlik yan keçmədi. Ruh yüksəkliyi aşağı düşdü. Bir ildir ölkəmizdə toy-büsat yoxdur. Hər ailə övladının şadlığını görmək istəyir. Bunlar da insanları ruhdan salır, bir az ümidsizləşirlər.

Mənim nə yaşım var ki, qocalıqdn danışırsınız? Gözəl qalmağımın səbəbi insanların mənə sevgisidir. Bu qarşılıqlıdır. Hər kəsə sevgi bəxş edirəm. İnsan yaş aldıqca ürəyindəki hisslər, pis, ya yaxşı, hamısı üzə çıxır. Bilinir ki, bu insanın qəlbi nədir".

**Sənətkar həmçinin övladlarından da bəhs edib:**

"Nəzrin rəssamdır. Mədəniyyət və İncəsənət Univeristetinin rəssamlıq fakültəsini bitirdi. Onlar istədikləri bir peşədə, yolda gedirlər. Onlara mane olmuram. Təki düzgün yol olsun, məsləhət verirəm. Qızıma maddi-mənəvi dəstək oluram. Valideyn öz övladlarına mütləq dəstək olmalıdır. Sıxışdırmamalıdır. Onlar da fikirləşib, düşünüb öz yollarını tapa bilirlər. Oğlum həm proqramist, həm də biznesmendir. Bir sözü var: "Biznesdə gərək əvvəl uduzasan, sonra udasan. Uduzmayan biznesmeni heç vaxt qəbul etmirlər". Hardasa müğənnilərdən söz düşəndə onlar deməyib ki, Mələkxanım Əyyubova anamdır. Söyləyiblər ki, özləri sonra bilərlər. Hər valideynə gözəl övladlar arzu edirəm".

**Samirə**



## Hüseyn Zaur Kamalı biabır etdi

"Efirə görə pul istədi..."

**"Keçən dəfə Hüseyn deyir ki, 30 manatdan atışın, bağ evimə gəlin. Kabab çəkəcəm. Heç utanmadın o sözü deyəndə?"**

"Şərq" xəbər verir ki, bu sözləri "Həmin Zaur" proqramında aparıcı Zaur Kamal musiqiçi Hüseyn Məhəmmədoğluna deyib. Klarnet ifaçısından Zaura cavab gecikməyib:

"Bəs sən utanmırsan camaatdan pul alanda? İstəmirəm açıqlamaq".

Bu zaman Z.Kamal "Sənə əlli manat verdim. Kiməsə pul yığırdın".

**Hüseyn isə həmin hadisənin təfərrüatlarından danışıb:** "Yardım pulu yığırdıq. Canlı verilişdə müraciət etdik ki, dünyadan köçən musiqiçi dostlarımızın ailəsinə yardım pulu yığırıq. Zaur qayıtdı ki, mən də 100 manat verəcəm. Reklam arasında pulu istədim, Dedi ki, qonaqlar pul verdi də. Söylədi ki, efirə görə pul verəcəyimi dedim. Sonradan başqa adam yardım etdi". Zaur isə o an cibində pul olmadığını, bir müğənninin sponsorunun onun əvəzinə verdiyini bildirib.

**Samirə**



## Açıq havada toyda maska taxmaq tələb olunacaq?

Nura Surinin sualları bitmir

**Müğənni Nura Suri feysbuk profilində karantin rejiminin qaydalarına irad bildirib.**

"Şərq" xəbər verir ki, o, statusda bunları yazıb: "Toylar açılır, lap yaxşı. Bunu bildik.

**Bəs, açıq havada toyda maska taxmaq, ya taxmamaq haqda bir açıqlama verən olub? Yoxsa toyların açılması yenə camaatı ucdantutma cərimələmək üçün tələdir?**

O boyda Amerikada maska taxmayanları cərimələyən görmədim. Maska məcburiyyəti də iyunun 15-dən ləğv olundu.

Las-Vegasda ayın on beşindən əvvəl də ümumiyyətlə maska taxan yox idi".

**Samirə**

# "Mən bahalı deyil, keyfiyyətli iş görürəm"

*Nazilə Səfərli: "Xalqı aldadırlar, harda yararsız musiqiçilər var xınaya sırıyırlar"*

"Əziz xanımlar, yazırsınız ki, xına paketi haqda məlumat ver. Əvvələ "xına paketi" anlayışı yanlışdır. Bu barədə verilən məlumatlarda sizi aldadırlar".



**"Şərq" xəbər verir ki, bu sözləri instaqram hesabında paylaşdığı videoda şairə Nazilə Səfərli deyib. O, fikirlərinə bunları da əlavə edib:** "Ona görə ki, bir xına paketində çəkiliş, rəqs, dekor və sair varsa, bunun keyfiyyətli-keyfiyyətsizi də mövcuddur. Fikirləşirsiniz ki, xına mərasiminizə çəkiliş gələcək. Ancaq 90-cı illərin kamerasını gətirirlər. Nazilə isə ən son model texnologiya ilə gəlir. Sonra da deyirlər, Nazilə bahaçıldır. Keyfiyyətli iş görürəm. Demək istəyirəm ki, danışanda əvvəlcə keyfiyyətlə maraqlanın. Tədbiriniz üçün nə yə istəsəz qənaət edin. Amma çəkilişə qənaət yaraşmır. Çünki çəkiliş sizi 100 il tarixdə saxlayır.

Xınayaxdı şirkətlərinə zəng edirlər, deyirlər, paket neçəyədir. Onlar da dərhal yaxşı qiymət irəli sürürlər. Paketin içində nəyin olduğuna baxırıq. Yazıblar, musiqi daxildir. Bir orkestr var, bir də "palatka" toylarından çıxıb ritmi bilməyən nağara və sair. Mən artıq söz demək istəmirəm. "Palatka" toylarını da pisləmirəm. Bəzi musiqiçilər istismara yararlı deyillər. Onları xınaya sırıyıb, camaatdan xeyli miqdarda pul alırsınız. Fikirləşirəm ki, xınaya kim gəlsin, əməkdar artistlərə, peşəkar musiqiçilərə zəng edirəm ki, yaxşı alınsın. Şirkətlər paketdə gəlinin əlinin yaylığı, xınalar, şamlar və sairləri də yığıb sıranı uzadıblar. Eyni hallar restoronlarda da müşahidə olunur. Məsələn, 40 manatlıq menyuya baxırsan ki, nələr yazılıb, amma stola gətiriləndə heç nə yoxdur. Başqa bir restoranda menyu 150-200 manatdır, içində yüksək səviyyəli hər şey var. Sonra deyirlər, filan restoran bahadır. Yaxşısını alıb ortaya çıxarıb. Gərək toydan sonra zəhərlənəsiniz? Ya et, ya etmə. Orda-burda şayiə yayıb "Nazilə bahalıdır" deyib, məni işə salmayın. Mən bahalı deyil, keyfiyyətli xidmət edirəm. Gördüyüm işin markasını göstərirəm. Müştəri istəyir onu başqa yerdən toplasın. Məndən istəsə ki, keyfiyyətsiz paket yığ, etmərəm. İşi təmiz görməlisən".

**Samirə**

## Günel bahalı libası ilə gündəmə gəlib



**Müğənni Günel Zeynalova (Azəri qızı) bahalı libası ilə gündəmə gəlib.**

"Şərq" xəbər verir ki, onun "Gucci" markalı paltarının qiyməti 3294 dollar, yəni 5654 manatdır. Bu fakt sosial şəbəkələrdə müzakirə olunub.

# Pərvin hər şeydən pul qazanır

*"İndiyə qədər aldığım ən bahalı hədiyyənin qiyməti 30 mindir"*



Aktrisa Pərvin Abıyeva "Həmin Zaur" proqramında qonaq olub.

"Şərq" xəbər verir ki, o, özü ilə bağlı danışıb. Sənətçi bunları söyləyib: "Bacarmadığım nəsə yoxdur. Hər şeydən pul qazanmağı bacarıram. Çox nadir hallarda utanıram. Bu sənətə gələndə bilməlisən ki, komplekssiz və azad olmaq bir işə yaramır. Həmişə üstümdə telefonum olmalıdır. İndiyə qədər aldığım ən bahalı hədiyyənin qiyməti 30 mindir. O birilləri açıqlamıram. Zinət əşyası idi. Əsasları gizlədirəm. Mənim haqqımda qəlbən saf olduğumu söyləmirlər. Ancaq mənfiliklərdən danışırlar. Bədənimdən çox razıyam".

**Samirə**

# Koronanın mənşəyi 20 min il əvvələ təsadüf edir

## *"İndi mövcud olan epidemiya nəsillər boyu davam edə bilər"*

*(Əvvəli səh: 16-da)*

Araşdırmada qədim virusun bölgədə illərdir təsirli olduğu qeyd edilib və mövcud COVİD-19 epidemiyasına peyvəndlə nəzarət edilmədiyi təqdirdə bunun ağır nəticələrə gətirib çıxara biləcəyi göstərilib.

Araşdırmaya rəhbərlik edən Arizona Universitetinin təkamülçü bioloqu David Enard bildirib: "Bu bizi narahat etməlidir. İndi mövcud olan epidemiya nəsillər boyu davam edə bilər". Enard və digər elm adamlarının mövcud koronavius genlərinə baxmaq əvəzinə, virusu daşıyan insanların DNT-sindəki təsirlərini araşdırdıqları və virusların insan genində böyük dəyişikliklərə səbəb olduğu açıqlanıb.

İnsanların biri-birlərinə ötürdükləri mutasiyalar əslində sonrakı nəsillərə ötürülür. Elm adamları virusların tarixini yenidən öyrənmək üçün bu genetik versiya nümunələri daxilində insan



genefondunu araşdırdıqlarını vurğulayıblar. Alimlər bu genlərdən 42-nin Şərqi Asiya populyasiyasında dominant bir versiyaya sahib olduğunu tapıblar.

Araşdırmada bütün bu genlərin 20-25 min il əvvəl çox güman ki, bir neçə əsr ərzində antiviral mutasiyaları inkişaf etdirdiyi təxmin edilir. Təəccüblü olan isə Şərqi Asiyada virusun necə bu qədər yayıldığı sualıdır. Çünki o zaman insanlar sıx icmalarda yaşamırdılar.

**Yeganə Bayramova**

# "Nar" "Gələcəyini Qur!" layihəsinə dəstək oldu




**Hər zaman elmə və gənclərin maariflənməsinə xüsusi önəm verən "Nar" ali təhsilli kadrların yetişdirilməsinə töhfə verən "Gələcəyini Qur!" Gəncliyə Dəstək layihəsi ilə əməkdaşlığa başlayır.**

Mobil operator ilkin mərhələdə 2021-2022-ci tədris ili üçün şagirdlərin seçim və müsahibə prosesinə rabitə dəstəyi göstərib.

Qeyd edək ki, "Gələcəyini Qur!" layihəsi təhsil alma həvəsi olan 11-ci sinif şagirdlərini müəyyən edərək, onlar üçün bir il ərzində universitetə hazırlıq, psixoloji dəstək və şəxsi inkişafa yönəlmiş müxtəlif təlim, səfər və tədbirlər təşkil edir. 2014-cü ildən Təhsil Nazirliyinin dəstəyi və bir sıra şirkətlərin sponsorluğu ilə fəaliyyət göstərən "Gələcəyini Qur!" layihəsinin əsas məqsədi aztəminatlı ailələrdən olan yüksək bilik və bacarığa malik gənclərin həyatda uğur əldə etmələrinə dəstək olmaqdır.

"Nar" növbəti gənclərin universitet hazırlığı xərclərinin ödənilməsini öz üzərinə götürəcək.

# İstefa kəsinləşəcək

## Nazir köməkçisi ilə gizli öpüşərkən rüsvay oldu

*(Əvvəli səh: 16-da)*





**İndi məlum olur ki, bu ifadənin əsasında səhiyyə nazirinin ən yaxın köməkçisi Gina Coladangelo ilə yaşadığı gizli eşq imiş.**

Fotoları bulvar qəzeti "The Sun" yayımlayıb. Müxbirlərdən biri nazirin 15 illik evlilik həyatında belə bir xəyanətə yol verdiyini öyrəndiyində şoka düşdüyünü yazıb. Fotolarla yanaşı video-görüntülər də var. Videoda görünür ki, nazir binanın 9-cu mərtəbəsindəki kabinetinin qapısını örtmədən öncə koridorda kimsənin olub-olmadığını yoxlayır. Günortadan sonra köməkçisi yanına gəlir və onlar bir-birinə sarılıb öpüşürlər. Müxbirlərdən biri söyləyib ki, nazirlə köməkçisi gizli sevgilərini gizlətməyə çalışsalar da nazirlikdə hamı bundan xəbərdar olub.

# "Azercell"in #QadınDediyin layihəsinin növbəti beynəlxalq uğuru

"Azercell"in təşəbbüsü ilə hazırlanan və sosial mediada milyonlarla baxış toplayan #QadınDediyin layihəsi növbəti beynəlxalq mükafata layiq görülüb. İndiyədək bir neçə nüfuzlu beynəlxalq festivallarda qalib olan layihə bu dəfə Şərqi Avropanın ən böyük yaradıcı festivallarından biri olan "White Square"də "For Bravery" özəl mükafatını alıb.

"For Bravery" mükafatı hər il cəmiyyətin önəmli problemlərini işıqlandıran ən cəsarətli layihələrə təqdim olunur. Bu il Minskdə keçirilən "White Square" festivalında dünyanın 30-dan çox ölkəsindən 1000-dən çox nümayəndə iştirak edib. Onlar arasında #QadınDediyin çarxının xüsusi qiymətləndirilməsi bu layihənin dünya miqyasında əhəmiyyətli mövzuya




toxunduğunu təsdiqləyir.

Qadın hüquqlarının müdafiəsi kimi həssas bir mövzuya həsr olunan bu layihədə cəmiyyətimizdə zərif cins nümayəndələri ilə bağlı stereotiplər və bu yanaşmanın dəyişdirilməsi zərurətindən bəhs edir. Milli Olimpiya Komitəsi və "Azercell" arasındakı əməkdaşlıq nəticəsində yaranan layihədə öz həyat hekayələri ilə bu stereotipləri qıran uğurlu azərbaycanlı qadın idmançıları iştirak ediblər. Onlar öz hədəflərinə doğru əzmkarlıqla addımlamaqla, inkişafa, təhsilə, uğura gedən yolda sərhədlərin olmadığını sübut ediblər.

Ötən il yayımlanan bu layihə sosial şəbəkələrdə geniş əks-səda yaradıb. Nüfuzlu influenserlər və bloqqerlər tərəfindən dəstəklənən layihə sosial şəbəkələrdə 85%-i müsbət geri dönüş olmaqla, ümumilikdə 3.8 milyon insana çatdırılıb. Beləliklə, Azərbaycan reklam tarixinin ən cəsarətli kampaniyalarından birinə çevrilən #QadınDediyin layihəsi həm yerli, həm beynəlxalq ictimaiyyətin diqqətini cəlb etməyə bacarıb.

Qeyd edək ki, Azercell şirkətinin KSM sahəsində həyata keçirdiyi təşəbbüslər indiyədək dəfələrlə yerli və beynəlxalq müsabiqələrdə ali mükafatlara layiq görülüb. #QadınDediyin layihəsi bundan əvvəl Orta Asiyada marketinq, reklam və kommunikasiya sahəsinin ən nüfuzlu müsabiqələrindən sayılan "Red Jolbors" festivalında iki yüksək mükafat alıb.

**Məlumat**

Şəmkir rayon İcra Şöbəsinin 03.05.2021-ci il tarixli, 34081/2019-12 saylı sifarişi üzrə, Şəmkir rayonu, Təzəkənd kəndində yerləşən 0,06 ha torpaq sahəsinə dair 25 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərracın iştirakçısı olmadığından hərrac baş tutmamışdır.

***"Əmlak Hərrac Mərkəzi" MMC***

**Məlumat**

Şəmkir rayon İcra Şöbəsinin 07.04.2021-ci il tarixli, 2261/2014-121634/21 saylı sifarişi üzrə, Şəmkir şəhərində yerləşən 0,06 ha torpaq sahəsinə dair 25 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərracın iştirakçısı olmadığından hərrac baş tutmamışdır.

***"Əmlak Hərrac Mərkəzi" MMC***

**Elan**

Cəbrayıl rayonundan köçkün olan Şükürov Xəqani Hüseyin oğlunun adına Qaçqın və Köçkünlərin işi üzrə Dövlət Komitəsi tərəfindən verilmiş vəsiqə itdiyi üçün etibarsız sayılır.

ADPU-nin kafedra müdiri, biologiya üzrə fəlsəfə doktoru, dosent

**Hacı Mirnizam Mehdizadənin**

vəfatı ilə bağlı əmisi oğlu Kərbəlayi Mirməhəmməd ailəsinə və qardaşları Hacı Mirnəsib, Hacı Mirbəşir, Kərbəlayi Mirhəbibə dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət etsin!**

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon:** 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1139

# Koronanın mənşəyi 20 min il əvvələ təsadüf edir

“İndi mövcud olan epidemiya nəsillər boyu davam edə bilər”



**ABŞ-da aparılan araşdırmada COVİD-19-un mənşəyinin 20 min il əvvələ dayandığı üzə çıxıb.**

”Şərq” türk medasına istinadən xəbər verir ki, Şərqi Asiyada 20 min il əvvəl bugünkü insanların DNT-sində iz qoyacaq qədər güclü bir epidemiyanın olduğu irəli sürülüb.

*Davamı səh: 15-də*

**Yeganə**

# 100 min il yaşı var

Alimlər yeni bir insan növü kəşf ediblər





**İsraildə çalışan elm adamları 100 min il əvvəl yaşayan və daha öncə bilinməyən qədim insan növlərini təsbit etdiklərini açıqlayıblar.**

”Şərq ” ”Ntv.com”a istinadən xəbər verir ki, qazıntı işləri İsrailin Ramla şəhərində aparılıb.

Şəhər yaxınlığında tapılan qalıqların qədim insan qrupunda sağ qalanlardan sonuncu olduğu deyilir. Tapıntılar 140 min ilə 120 min il əvvəl yaşamış bir fərdin qismən kəllə və çənəsindən ibarətdir.

Yeni kəşf olunan insan növü ”Nesher Ramla Homo” adlanır. Təl-Əviv Universitetinin doktoru Hila May bu kəşfin bəşəriyyət tariximizi, xüsusən də Neandertalların necə ortaya çıxdığını yenidən formalaşdırdığını söyləyib. ”Nesher Ramla Homo” qrupunun ilk üzvlərinin təxminən 400 min il əvvəl Yaxın Şərqdə yaşadığı ehtimal olunur.

**Yeganə**

# Araşdırma sirləri açır

Yadplanetlilər dünyanı lərzəyə salıb



**Bir neçə həftədir yadplanetlilər və uçan naməlum obyektlərlə (UFO) bağlı xəbərlər gündəmdədir. Xatırladaq ki, Pentaqon donanması tərəfindən çəkilən UFO görüntülərinin araşdırıldığı açıqlandı. Hətta Pentaqonun gizli UFO hesabatı da sızdırıldı.**

Bir sözlə, Pentaqonun sızdırdığı UFO hesabatı, İngiltərədə görülən kosmik gəmi, Barak Obamanın açıqlamaları, Çində ortaya çıxan nəhəng üçbucaqlı obyekt gündəmi zəbt edib. Daha sonra isə astronomlardan yadplanetli açıqlaması gəldi. ”Şərq” türk mediasına istinadən bildirir ki, ”The Guardian”da yer alan xəbərə görə, Cornell Universitetinin astronomiya professoru Lisa Kalteneqer və Amerika Təbiət Tarixi Muzeyinin astrofiziki Cakie Faherti ”Gaia” peykinin hansı ulduz sistemlərinin olduğunu öyrənmək üçün ulduz mövqeləri hazırlayıblar. Kalteneqer və Faherti 326 işıq ili içərisində Günəşin ətrafında 5000 il əvvəl və 5000 il sonrakı dövrdə dövr etdikləri zaman dünyanı kəşf edə biləcək 2.034 ulduz sistemi təsbit ediblər.

Kalteneqer ”Yadplanetləri tapmağın bir yolu, ev sahibinin ulduzlardan gələn işığın bir hissəsini bağlamasıdır. Yaşadığı düşünülən 29 yadplanetlinin bu ulduz sistemlərində Yer kürəsini araşdırmaq və radio-televiziya yayımlarını dinləmək üçün yaxşı vəziyyətdə olduqları təxmin edilir”.

**Yeganə**



# Beş qat təhlükəlidir

*Koronavirusun “Delta” ştammına daha çox uşaqlar yoluxur*



**Koronavirusun yeni mutasiyası günü-gündən yayılmağa davam edir. Ölkələr peyvənd işlərində müvəffəqiyyətli olsalar da, Hindistanda ortaya çıxan ”Delta” ştammı dünyada dominant gərginliyə səbəb olub.**

”Şərq” ”Ntv.com”a istinadən xəbər verir ki, ABŞ, İsrail, İngiltərə və Şotlandiyada aparılan araşdırmalar nəticəsində dünyada koronavirusun ”Delta” variantının uşaqlar üçün daha təhlükəli olduğu açıqlanıb.

Mütəxəssislər uşaqların ağır xəstələnməyindən yox, onların Delta ştammına yoluxmasından narahatdırlar. ABŞ-da hər dörd yoluxmadan birinin uşaq olduğu bildirilib. Digər tərəfdən, Şotlandiyadakı araşdırmada ”Delta” ştammının daha çox 5-12 və 18-24 yaş arasındakı gənclər üçün beş qat daha çox təhlükə yaratdığı məlum olub.

**Yeganə Bayramova**

# Saç qısqacı ona bir ev qazandırdı

Deminin dəyiş-düyüş ticarəti genişlənməyə başlayıb






**ABŞ-da yaşayan Demi Skipperin izlədiyi bir video həyatını dəyişib.**

”Şərq” ”Milliyet.com”a istinadən bildirir ki, Demi pandemiyanın ilk vaxtlarında San-Fransiskodakı mənzilində 2005-ci ildə baş vermiş inanılmaz olay barədə video izləyib. Videoda bir dənə qırmızı ataşla iki mərtəbəli həyat evinə sahib olan kanadalı bloger Kyle MacDonaldın həyat hekayəsindən danışılırmış. Bloger illər öncə internetdə bir bloq açıb, əlindəki kağız sancağını nümayiş etdirərək onu bir başqa əşya ilə dəyişmək istədiyini internet istifadəçilərinə bildirib. Kağız sancaqdan sonra müxtəlif oyuncaqlar, manqal, mühərrik, tətil məkanları - əlinə nə keçdi, ağlına nə gəldi internet üzərindən dəyiş-düyüş etməyə başlayıb. Zamanla tanınıb, məşhurlaşıb və dəyişdirdiyi əşyaların siyahısı da, həcmi də böyüyüb. Bir dəfə də ona məhəllə sakinlərinn istifadə etmədiyi ev təklif edilib. Beləcə Kyle ev sahibi olub. Demi də bu videonu izlədikdən sonra ”mən də bunu bacararam”, deyib. Və evdəki ən kiçik əşya ilə - saç qısqacı ilə (”zajim”) ”ticarət” aparmağa başlayıb. Feysbukda qrup yaradıb. Az keçmiş bir qadın saç qısqacını sırğa ilə dəyişmək istədiyini bildirib. Deminin də dəyiş-düyüş ticarəti genişlənməyə başlayıb. Tozsorandan, televizoradək ”uzanıb”. Hazırda Demi Skipper bu ticarət şəbəkəsiylə evlərlə əlaqə yaradır. TikTok-da 5 milyon izləyici toplayıb artıq. Demi ard-arda gələn təkliflərlə kabinə-ev və ”Mustang” avtomobilinə sahiblənib. Demi bir saç qısqacının ona ev və avtomobil azandıracağını ağlına belə gətirmədiyini deyib.

**Məlahət**



# İstefa kəsinləşəcək

Nazir köməkçisi ilə gizli öpüşərkən rüsvay oldu

**Böyük Britaniya Səhiyyə naziri Matt Hancockun köməkçisi ilə kabinetdə öpüşərkən təhlükəsizlik kameralarının qeydə aldığı görüntülərin mediaya sızmasıyla çalxalanır.**

Səhiyyə naziri də, xanım köməkçi də - hər ikisi evlidir. Hadisə bu il mayın 6-da yaşanıb. Amma indi, nazirlikdə çalışan müxbirlər tərəfindən mediaya ötürülüb. Nazir açıqlama verərək bu hərəkətinə görə üzr diləsə də, olanların istefa ilə sonuclanacağı görünür. ”Şərq” Türkiyə mediasına istinadən bildirir ki, pandemiya dövründə nazirin kreslosu onsuz da ”laxlayırdı”. Müşavirləri Baş nazir Boris Consona səhiyyə nazirini vəzifədən azad etmək üçün təzyiq də göstəriblər. Belə bir həssas zamanda nazirin evli bir xanımla öpüşmə səhnəsi vəziyyəti daha da gərginləşdirib. B.Conson bir müddət öncə səhiyyə naziri barədə mesaj yazaraq ”ümidsiz hadisə” ifadəsini işlətmişdi.

*Davamı səh: 15-də*